QARABAĞ AZƏRBAYCANDIR!

SƏS

№ 222 (6663) 3 dekabr 2022-ci il. Qiymət 60 qəpik



Türkiyəli professor: “Fransanın türklərə qarşı düşmənçiliyi tarixdə qara ləkə olaraq qalacaq”

5

## Bölgələrin inkişafına dövlət dəstəyi gücləndirilir

2



# Sülhməramlıdan sülhməramsıza: limit tükənir!

14



## Yeni ildə əfv sərəncamı gözlənilir?



5

## Ermənilər niyə ac və yoxsuldur?



10

## Yeni rayonların yaranmasına ehtiyac var?



16

## Təhsil tələbə kreditlərindən hansı tələbələr yararlana bilər?



## DİQQƏT: Bu şəxsləri 3000 manatadək cərimə gözləyir!

16



Azərbaycanda sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında qanunvericiliyin pozulmasına görə cərimələr ikiqat artırılır.



10

## İctimai nəqliyyat və biz

# Bölgələrin inkişafına dövlət dəstəyi gücləndirilir

**Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva dekabrın 2-də Şəki rayonuna səfər ediblər. Dövlətimizin başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Leyla Əliyeva Ümummilli Lider Heydər Əliyevin Şəki şəhərindəki abidəsini ziyarət edib, önünə gül dəstələri qoyublar.**



Dünən Azərbaycan Prezidenti İlham Əliyev Qaraməryəm-İsmayıllı-Şəki avtomobil yolunun Oğuz-Şəki hissəsinin yenidənqurmadan sonra açılışında iştirak edib. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına yolun texniki göstəriciləri barədə məlumat verib.

Bildirildi ki, uzunluğu 47,2 kilometr olan yolun 7,5 kilometri 1-ci texniki dərəcəyə, 26,1 kilometri 2-ci texniki dərəcəyə, 13,6 kilometri isə 3-cü texniki dərəcəyə uyğun yenidən qurulub. Buraya Oğuz və Şəki şəhərlərinə giriş yollarının, həmçinin "Şəki dairəvi yolu"nun əsaslı şəkildə təmiri də daxildir.

Qeyd edildi ki, layihə çərçivəsində yolboyu genişləndirmə işləri icra olunub, yolun köhnə asfalt örtüyü sökülüb, zəruri yerlərdə yararsız qrunt qazılaraq çıxarılıb, əkslumat verib.

Bildirilib ki, müəssisənin 100 hektar bağ sahəsi var. Həmin ərazidə Fransa, İtaliya və Türkiyədən gətirilmiş 55 mindən çox meyvə ağacından, o cümlədən şaftalı, nektarin, ərik, gavalı, xurma, gilas, alma və alça meyvələrinin bir neçə növündən ibarət bağ salınıb.

Diqqətə çatdırıldı ki, meyvə bağının suvarma suyu ilə təminatı üçün 8 artezian quyusu qazılıb, ümumi həcmi 15 min kubmetr olan su tutarları tikilib. Ərazinin fasiləsiz və səmərəli suvarılması məqsədilə 2 su nasosundan ibarət stansiya qurulub, müasir suvarma texnologiyalarının bütün texniki normalarına uyğun damcılama suvarma sistemi yaradılıb.

Dünən Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şəki Şəhər İcra Hakimiyyətinin yeni inzibati

*Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şəki və Oğuz rayonlarına səfər ediblər*







dolğu işləri görülüb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva dekabrın 2-də Şəkinin Orta Zəyzid kəndində "Green Factory" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) quru meyvə istehsalı müəssisəsində yaradılan şəraitlə tanış olublar. Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov müəssisənin fəaliyyəti barədə dövlətimizin başçısı İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya və Leyla Əliyevaya məbinasında yaradılan şəraitlə tanış olublar. Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov dövlətimizin başçısı İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya və Leyla Əliyevaya binada yaradılan şərait barədə məlumat verib.

Bildirildi ki, icra hakimiyyətinin yeni binası zirzəmi qatından və 4 mərtəbədən ibarətdir. Ümumi sahəsi 6080 kvadratmetr olan binada 56 yerlik konfrans zalı, 164 nəfərlik akt zalı və 70 nəfərlik yeməkxana yaradılıb. Həmçinin yeni binada hər cür şəraiti olan 90 iş otağı, kitabxana, muzey, sərgi və toplantı otaqları var. Zirzəmi qatında avtodayanacaq və texniki xidmət sahəsi fəaliyyət göstərir.

Həmin gün Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Heydər Əliyev Fondu tərəfindən Şəki Xan məscidi kompleksində aparılmış bərpa işləri ilə də tanış olublar. Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısı İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya və Leyla Əliyevaya kompleksdə aparılmış bərpa işləri barədə məlumat verdi.

Bildirildi ki, Şəki Xan məscidi kompleksi əsaslı bərpa işlərindən sonra istifadəyə verilib. Tarixi Şəki Xan məscidində bərpa işləri 2021-ci ilin may ayından etibarən Heydər Əliyev Fondu tərəfindən həyata keçirilib. Heydər Əliyev Fondu bərpa işləri ilə yanaşı, qazıntılar zamanı aşkar olunan və Şəki xanı nəslinə aid olduğu ehtimal edilən skelet nümunələri üzrə tədqiqatların aparılmasına da dəstək göstərib.

**Ardı Səh. 3**

# Bölgələrin inkişafına dövlət dəstəyi gücləndirilir












**Əvvəli-Səh-2**

Məscid kompleksi ərazisindəki bərpa işləri Dövlət Turizm Agentliyinin sifarişi ilə Memarlıq və İnşaat Universiteti tərəfindən hazırlanan layihə əsasında aparılıb. Ölkə əhəmiyyətli abidə siyahısında olan məscid xanlıqlar dövrünə (1745-1750-ci illər) aid edilir. Tarixi məlumatlara və üzərində qeyd edilən kitabələrə əsasən, məscid Hacı Məhəmmədhüseyn xan tərəfindən inşa olunub. Məscidin yanında yerləşən qəbiristanlıqdakı əsas 13 qəbir xan nəslinin nümayəndələrinə aiddir. Məscidin ön fasadında olan tağvari eyvan isə məscidə xüsusi gözəllik verir. Məscidin bərpası layihəsi 1981-ci ildə hazırlansa da, sonrakı illərdə heç bir iş görülməyib.

Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva dekabrın 2-də Şəki şəhərindəki "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğu ərazisində aparılan təmir-bərpa işləri ilə tanış olublar.

Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 2-də Oğuz rayonuna səfər edib. Dövlətimizin başçısı Ulu Öndər Heydər Əliyevin Oğuz şəhərindəki abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub. Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də Oğuzda Daşağıl çayı üzərində "Oğuz-1", "Oğuz-2", "Oğuz-3" kiçik su elektrik stansiyaları silsiləsinin açılışında iştirak edib. "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlətimizin başçısına kiçik su elektrik stansiyaları haqqında məlumat verib.

Bildirildi ki, alternativ və bərpaolunan enerji mənbələrinin əhatəsinin genişləndirilməsi, azalmaqda olan su ehtiyatlarından səmərəli istifadə, təbii qaza qənaət, ətraf mühitin qorunması və "yaşıl enerji"nin prioritet istiqamət seçilməsi ilə bağlı Prezident İlham Əliyevin qarşıya qoyduğu tələblərə uyğun olaraq "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti tərəfindən Oğuz rayonunun Daşağıl çayı üzərində 5 kilometr məsafədə kaskad üsulla 3 yerdə ümumi gücü 3,6 meqavat olan kiçik su elektrik stansiyasından ibarət hidroqovşaq yaradılıb, bu stansiyalarda ümumilikdə 8 hidroaqreqat quraşdırılıb. Baş Daşağıl kəndində hər üç stansiyanın mənbəyi olaraq suqəbuledici və sel sularının ötürülməsi üçün sutullayıcı qurğu inşa edilib. Bu qurğunun yaradılması "yaşıl enerji"nin istehsalı ilə yanaşı, rayonun su təchizatına da töhfəsini verib. Dövlətimizin başçısı elektrik stansiyalarını işə saldı.

Prezident İlham Əliyev dekabrın 2-də Oğuz rayonunda "Aqroinkişaf 2017" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) "Şəki-Oğuz" Aqroparkında yaradılan şəraitlə tanış olub. "Aqroinkişaf 2017" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Ruslan Sadıxov dövlətimizin başçısına Aqroparkın fəaliyyəti barədə məlumat verib.

Qeyd edilib ki, Şəki rayonunun ərazisində 9700 hektar və Oğuz rayonunun ərazisində 1300 hektar olmaqla, ümumilikdə 11 min hektar sahədə yaradılmış Aqropark bağçılıq və əkinçilik üzrə fəaliyyət göstərir. Burada əsasən qoz, badam və zeytun bağları salınır və taxıl bitkiləri əkilir. Layihənin ümumi dəyəri 30 milyon manatdır. Zəruri infrastrukturun yaradılmasına 67,8 milyon manat dövlət əsaslı vəsaiti qoyulmuşdur. Prezident İlham Əliyevə Aqroparkda yetişdirilən məhsullar təqdim olunub.

Dekabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Şəki-Oğuz" Aqroparkının torpaq sahəsinin suvarma suyu ilə təmin edilməsi üzrə görülmüş işlərlə də tanış olub. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin (ASC) sədri Zaur Mikayılov dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, "Şəki-Oğuz" Aqroparkının torpaq sahələrini suvarma suyu ilə təmin etmək üçün işçi layihəsi "Azdövsutəslayihə" İnstitutu tərəfindən tərtib olunub. Layihənin ümumi dəyəri 58 min 998 manatdır.

Azərbaycan Prezidenti İlham Əliyev daha sonra Oğuz rayonunda "Şəki-Oğuz" Aqroparkının qoz məhsulunun qərzəkdən təmizlənməsi, yuyulması və qurudulması zavodunun təməlini qoyub. "Aqroinkişaf 2017" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Ruslan Sadıxov dövlətimizin başçısına zavodun layihəsi barədə məlumat verib. Ümumilikdə 2 min hektar bağdan ilkin olaraq 10 min ton qoz istehsal edilməsi nəzərdə tutulub. Eyni zamanda, qoz növləri üzrə tingçilik təsərrüfatı yaradılıb. Məhsulların yığılma və qurudulma vaxtı 40 gündür. Qoz məhsulunun qurudulması üçün nəzərdə tutulmuş 80 metal qutunun həcmi 400 tondur. Məlumat verildi ki, zavodda ilkin olaraq 40 yeni iş yerinin yaradılması nəzərdə tutulur. Prezident İlham Əliyev yeni zavodun təməlini qoydu.

# Birinci vitse-prezident Mehriban xanım Əliyeva Şəkidən paylaşımlar edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva özünün rəsmi instaqram hesabında Şəkidən paylaşımlar edib. AZƏRTAC xəbər verir ki, paylaşımlarda qeyd edilib: "Şəkiyə gedərkən", "Şəki Xan məscidi kompleksində. 02.12.2022".







# "Biz heç bir ölkə ilə, heç bir beynəlxalq qurumla Qarabağdan danışmaq fikrində deyilik"

***"İkinci Qarabağ müharibəsindən sonra Ermənistanda müəyyən illüziya yaranıb ki, onlar bizimlə Qarabağla bağlı danışmağa davam edəcəklər. Biz əvvəldən demişdik ki, bu, qətiyyən mümkün deyil. Biz heç bir ölkə ilə, heç bir beynəlxalq qurumla Qarabağdan danışmaq fikrində deyilik. Qarabağ münaqişəsi həll olunub, bu bizim ərazimizdir, hamı tərəfindən tanınır və bizim daxili işimizdir".***



Bu sözləri Prezident İlham Əliyev noyabrın 25-də ADA Universitetində keçirilən "Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda beynəlxalq konfransda bildirib. "Beləliklə, biz bunu rəsmiləşdirməli idik və bu, baş verdi. Praqa görüşünün kommünikesinə baxsanız, görərsiniz ki, Ermənistan ilk dəfə olaraq rəsmi şəkildə Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini tanıdı və bu həm də Azərbaycanın Qarabağ üzərində suverenliyi deməkdir. Həmçinin Praqa bəyanatında keçmiş sovet respublikalarının inzibati sərhədlərini faktiki formalaşdıran 1991-ci il Almatı bəyannaməsinə istinad edilir və bu da o deməkdir ki, Qarabağ ermənilәri üçün hansısa statusun olması ilə bağlı hər hansı spekulyasiyadan söhbət gedə bilməz. Beləliklə, Avropa İttifaqı formatına qayıtmaq vacib idi, çünki biz Brüsseldəki bu qarşılıqlı əlaqələr sayəsində iki yola ayrılmağa razılaşdıq. Biri Ermənistan-Azərbaycan sülh müqaviləsi üzrə danışıqlar, ikinci yol isə bizim Qarabağdakı erməni azlığın nümayəndələri ilə iki məsələnin həlli ilə bağlı danışıqlarımız - onların hüquqları və təhlükəsizliyidir. Bu, razılaşdırıldı və buna görə də demək istədiyim odur ki, bu, nəticəyönümlü tədbir idi. Praqadakı görüşün formatı isə bir qədər fərqli idi. Çünki Fransa Prezidenti Makron bizim qrupumuza qoşuldu və mən burada bu məsələni şərh etməyi dayandırıram. Bir daha deyirəm, Praqa görüşünün nəticəsi bizim üçün uğurlu idi. Ermənistan Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü tanıdı" - deyə Azərbaycan Prezidenti qeyd edib.

## QARABAĞ MÜNAQİŞƏSİ HƏLL OLUNUB, QARABAĞ MÖVZUSU BAĞLANIB

Bu gün Ermənistanda müəyyən illüziya yaranıb ki, onlar bizimlə Qarabağla bağlı danışmağa davam edəcəklər. Nə qədər savadsız və sabadsız düşüncə. Çünki bu qətiyyən mümkün deyil. Dövlət başçımızın söylədiyi kimi, biz heç bir ölkə ilə, heç bir beynəlxalq qurumla Qarabağdan danışmaq fikrində deyilik. Qarabağ münaqişəsi həll olunub, bu bizim ərazimizdir, hamı tərəfindən tanınır və bizim daxili işimizdir. Və Fransa Senatının tamamilə qəbuledilməz və təhqiredici məlum qətnaməsi, bunun ardınca Fransanın Frankofoniya Sammitində bizə qarşı hücum cəhdi. Bu, qətiyyən qəbuledilməzdir, çünki Frankofoniya humanitar təsisatdır və heç vaxt belə məsələlərlə məşğul olmayıb. Belə bir şəraitdə Fransa Azərbaycan və Ermənistan arasında sülh danışıqlarında iştirak edə bilməz. Onları bu formatdan kənarlaşdıran biz yox, özləri oldu. Çünki nə Rusiya, nə də Amerika, keçmiş Minsk qrupunun hansısa həmsədri heç vaxt rəsmən, yeni müharibədən sonrakı dövrdə tərəf tutmayıb, yalnız Fransa tutub. Ola bilsin ki, Ermənistan tərəfi heç bir nəticəyönümlü ssenari olmadan prosesi sonsuz etmək üçün işğal zamanı da istifadə etdiyi köhnə taktikadan istifadə etmək qərarına gəlib.Ancaq istər Paşinyan, istərsə də Makron bilməlidir ki, Azərbaycan 44 günlük Vətən müharibəsində "Dəmir yumruq" siyasəti ilə münaqişəni hərbi yolla həll etdi, tarixi zəfərə imza atdı və dövlət başçımızın söylədiyi kimi, artıq yeni reallıqlar yaranıb. Və əgər Azərbaycanın işğal altında olan torpaqları siyasi yolla, müharibə olmadan, itkilər olmadan azad edilsəydi, o halda "status" məsələsi də müzakirə predmeti ola bilərdi. İndi isə artıq vəziyyət dəyişib, Azərbaycan yeni tarixi reallıqlar yaradıb. Yeni reallıqlarda isə "status" məsələsinə gəldikdə Ali Baş Komandan İlham Əliyevin açıq mövqeyi var və bu mövqe də odur ki, "status" məsələsi artıq yoxdur, ümumiyyətlə, bizim gündəliyimizdən o məsələ çıxıb.Bir sözlə, indi qalib tərəf Azərbaycandır və şərtləri də Qalib ölkənin Qalib Lideri Prezident İlham Əliyev diqtə edir, ona görə də bu məsələyə qayıtmağın mənası yoxdur. Bəli, indi qalib tərəf şərtləri diqtə edir. Və Ermənistanın baş naziri Nikol Paşinyanın və ona dəstək olan Makron kimilərin "status" məsələsinin müzakirə edilməsi arzuları artıq onların ürəyində qalıb və qalacaq!.Çünki .

## AZƏRBAYCANIN DAXİLİ İŞİ MÜZAKİRƏ PREDMETİ DEYİL

Bəli, Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi ilə status söhbətləri də birdəfəlik bağlandı. Ölkəmizin ərazisində yaşayan ermənilərin məsələsi isə Azərbaycanın öz daxili işidir. Noyabrın 25-də ADA Universitetində keçirilən "Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda beynəlxalq konfransda iştirakçıların suallarını cavablandıran Prezident İlham Əliyev bir daha bu mövzuya toxunaraq deyib: "Biz əvvəldən demişdik ki, bu, qətiyyən mümkün deyil. Biz heç bir ölkə ilə, heç bir beynəlxalq qurumla Qarabağdan danışmaq fikrində deyilik. Qarabağ münaqişəsi həll olunub, bu, bizim ərazimizdir, hamı tərəfindən tanınır və bizim daxili işimizdir". Bəli, Qarabağ münaqişəsi həll olunub, bu, bizim ərazimizdir, hamı tərəfindən tanınır və bizim daxili işimizdir. Çünki ATƏT-in Minsk qrupunun edə bilmədiklərini Azərbaycan güc yolu ilə təmin etdi. Artıq Azərbaycan ərazi bütövlüyünü təmin edib. 30 ilə yaxın bir müddətdə öz vəzifələrini yerinə yetirə bilməyən Minsk qrupunun da fəaliyyətinə ehtiyac yoxdur və müharibənin başa çatmasından sonra Fransa tərəfindən Minsk qrupu gündəmə gətirilsə də, artıq bu format dəfn olunub, tarixə qovuşub. Bir sözlə, bir daha vurğulamaq lazımdır ki, Prezident İlham Əliyevin yürütdüyü diplomatiya nəticəsində müharibənin başa çatmasından sonra yaranan bu reallıqlar siyasi mərkəzlər tərəfindən qəbul edilir. Və Qarabağ münaqişəsi artıq bitib və "status" barədə heç bir söhbət gedə bilməz. Bu gün bəzi dövlət rəsmiləri "Qarabağın status məsələsi həll olunmayıb" fikirini söyləməklə hələ də əsl reallığı dərk etmirlər. Və Prezident İlham Əliyev qətiyyətlə erməni havadarlarına və ümumiyyətlə, hər kəsə bəyan etdi ki, Qarabağ münaqişəsi artıq bitib və status barədə heç bir söhbət gedə bilməz.

Prezident İlham Əliyev noyabrın 25-də Bakıda, ADA Universitetində "Orta dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda keçirilən beynəlxalq konfransda da bu barədə ətraflı məlumat verərək bildirmişdi ki, ikinci qətnamənin qəbulu da gözlənildi. Çox keçmədi ki, İlham Əliyevin konfransda dediyi fikirlər gerçəkləşdi. Prezident demişdi ki, Fransa Senatının tamamilə qəbuledilməz və təhqiredici məlum qətnaməsinin qəbulundan sonra Fransa Milli Assambleyasının daha bir anti-Azərbaycan qətnaməni qəbul etməsi də gözlənilir. Bu, Fransanın Azərbaycana qarşı açıq-aşkar hücuma keçdiyini təsdiqləyən reallıqdır. Bu, bir daha sübut edir ki, soyqırımı törətmiş Fransa dövləti bu gün açıq mətnlə Ermənistanı, eyni cinayəti törədən dövləti müdafiə edir. Bir sözlə, Azərbaycan Prezidenti konfransda da İkinci Qarabağ müharibəsinin qalib komandanı kimi bir daha Ermənistanın havadarlarına, xüsusən də Fransaya çatdırdı ki, onun sözü imzası qədər keçərlidir. E.Makrona da bəlli oldu ki, əsl sərkərdə qətiyyətli Qalib Lider Prezident İlham Əliyevə hər hansısa təzyiq, göstəriş və ultimatum keçmir, onunla tələb və təhdid dili ilə danışmaq mümkünsüzdür. Və Ermənistan da, Fransa da, bu şəbəkənin digər üzvləri də bundan nəticə çıxarmalıdırlar.

**RƏFİQƏ KAMALQIZI**



# Elmi-kütləvi, mədəni-maarif proqramları öz aktuallığını qoruyur

Təhlil

***Ölkənin güclənməsi baxımından inkişaf proqramları, xüsusilə də təhsil proqramları ən vacib faktorlardan sayılır və bu baxımdan da elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanmasına xüsusi diqqət ayrılır. Heç şübhəsiz ki, ölkənin inkişafı onun elm, təhsil və mədəniyyətinin səviyyəsi ilə ölçülür və məhz buna görə də Azərbaycanda bu istiqamətdə mühüm işlər görülür.***

Bununla belə elmi-kütləvi, mədəni-maarif və təhsil proqramlarına hər zaman ciddi ehtiyac var, çünki ölkəni dünyanın yenidən elm-mədəniyyət beşiyinə çevirə bilən məhz bu proqramlar hesab olunur.

Doğrudur, Azərbaycanda təhsilin və elmin inkişafı ilə bağlı geniş miqyasda müvafiq işlər görülüb və görülməkdədir, amma bu işlər bundan sonra da davam etdirilməlidir ki, geriləmə olmasın. Əvvəla ona görə ki, dünyada bu sahədə hər zaman yeniliklərə imza atılır, uğurlar qazanılır və bu baxımdan ölkədə bu proseslərin daha da sürətləndirilməsinə ehtiyac həmişə var. Digər tərəfdən də, etiraf etmək lazımdır ki, elmi-kütləvi, mədəni-maarif və təhsil proqramlarının hazırlanması istiqamətində ciddi islahatların keçirilməsi bütün zamanlarda öz aktuallığını qorumaqdadır.

Nəzərə almaq lazımdır ki, elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması məhz cəmiyyətin bütün sahələr üzrə inkişafını təmin etmək üçün vacib hesab olunur. İlk növbədə ona görə ki, dövlətin inkişafını şərtləndirən ən mühüm amillərdən biri də onun təhsil sektorunun davamlı şəkildə dirçəldilməsidir. Elə buna görə də təhsil sistemində edilən yeniliklərdir ön planda durmaqdadır və bu baxımdan da təhsilin keyfiyyətinin yaxşılaşdırılması dövlət siyasətinin əsas prioritetlərindəndir. Məhz buna görə də bu istiqamətdə qəbul olunan proqramlar sözügedən sektorun inkişafını əhəmiyyətli dərəcədə artırır və bu sahəyə diqqət daim artırılır.

Televiziya və radiolarda, eləcə də internet resurslarında elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarına daha çox önəm verilməlidir, çünki hazırda televiziyanın və radionun, həmçinin internet resurslarının daha geniş imkanları var. Məhz bu baxımdan kommersiya xarakterli proqramlara televiziya və radiolarda, eyni zamanda internet resurslarında daha geniş diqqət ayırmaqdansa, elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarına xüsusilə yer verilməli, şou xarakterli proqramların əvəzinə kütləvi xarakter daşıyan maarifçilik əhəmiyyətli proqramlar ön planda olmalıdır. Ona görə ki, həm daim inkişaf etməkdə olan dünya ilə ayaqlaşmaq lazımdır, həm də sözügedən proqramların köməyi ilə insanların bilik və intellekti artırılmalıdır və ələlxüsus indiki dövrdə daha vacib məqamlardan hesab olunur.

Vətən müharibəsi, 44 günlük savaş bitdikdən, Azərbaycan qələbə qazandıqdan sonra davamlı olaraq elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması daha vacib hesab olunur. Əvvəla ona görə ki, müharibə ölkəmizin Zəfəri ilə başa çatsa da, qələbə qazansaq da, cəbhədə döyüşlər bitsə də, informasiya müharibəsində mübarizə bitməyib və davam etməkdədir. Nə qədər davam edəcəyi də bəlli deyil və belə olan halda, cəmiyyətimizin daha da təkmilləşməsi, dünya görüşünün artırılması, savadlanması, hərtərəfli informasiya ilə təmin edilməsi xüsusilə vacib məqamdır, çünki reallıqların, Azərbaycan həqiqətlərinin, haqlarının vətəndaşlarımız tərəfindən bilinməsi olduqca önəmlidir. Azərbaycan vətəndaşı ölkəmizə, xalqımıza məxsus olan bütün dəyərlər, ərazilərimiz, sərhədlərimiz, tariximiz, kökümüz, adət-ənənələrimiz barədə müfəssəl məlumata malik olmalıdır. Qələbənin təmin olunmasında, ərazi bütövlüyümüzün bərpa edilməsində, Ali Baş Komandanın, qətiyyəti, uzaqgörənliyi, liderlik keyfiyyətləri, apardığı siyasət, Azərbaycan xalqının oynadığı rol, həmrəyliyi, ordumuzun rəşadəti, mübariz ruhu və digər önəmli məsələlər barədə vətəndaşlarımızın məlumatlı olması çox vacibdir. Bu məqsədlə də əlbəttə ki, elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının inkişaf etdirilməsinə, hətta yenilərinin hazırlanmasına ehtiyac duyulmaqdadır və elə buna görə də həmin məsələlər artıq proqram şəklində ilk növbədə orta məktəblərdə, sonra da ali təhsil ocaqlarında tədris olunmalı, buna çox ciddi şəkildə xüsusi önəm verilməlidir. Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramları elə hazırlanmalı, elə bir şəkildə tədris olunmalıdır ki, əldə etdiyimiz uğurlarımız, qələbələrimiz post-konflikt dövründə də, həmçinin bundan sonra da həmrəyliyimizin və birliyimizin daha da güclənməsində öz töhfələrini vermiş olsun. Bunun üçün, yeni elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının daha mükəmməl hazırlanması üçün mütəxəssis yanaşması, mütəxəssis rəyi mütləq nəzərə alınmalı, alimlərin, mədəniyyət xadimlərinin, təhsil ekspertlərinin imkanlarından və potensialından istifadə edilməlidir.

Azərbaycanda artıq post-konflikt dövründə, yeni Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsindən sonra nikbin notlar üzərində elmi-kütləvi, mədəni-maarif proqramları irəli sürülməkdədir. Bu proqramlarda Vətən müharibəsi, qazandığımız Böyük Zəfər, Azərbaycan xalqının yeni tarixi, tarixi şəxsiyyətlərimiz haqqında daha geniş məlumatlar əks olunur ki, bu çox sevindirici haldır. Belə olan halda, Vətən müharibəsi, qazandığımız zəfərlər, vətənpərvərlik ruhunun inkişaf etdirilməsi, Azərbaycan həqiqətlərinin öyrənilməsi, təbliğ olunması, bütün dünyaya belə çatdırılması çox vacib məsələdir və bunun üçün də elmi-kütləvi, mədəni-maarif proqramlarının hazırlanması öz aktuallığını qoruyur.

***İnam Hacıyev***

# Türkiyəli professor: "Fransanın türklərə qarşı düşmənçiliyi tarixdə qara ləkə olaraq qalacaq"

***Təəssüflər olsun ki, başda Fransa olmaqla bəzi qərb ölkələri tərəfindən Azərbaycanın öz doğma torpaqlarında qazandığı Qarabağ Zəfəri sayəsində Qafqaza gətirdiyi sülh mühitini pozmağa cəhdlər edilir. Bu fikirləri Ankara Hacı Bayram Vəli Universitetinin Jurnalistika fakültəsinin dekanı professor Zakir Avşar AZƏRTAC-a açıqlamasında ifadə edib.***



Otuzillik işğal dövründə vasitəçilik adı altında təcavüzkar Ermənistanın zəbt etdiyi Azərbaycan torpaqlarına sahiblənməsi üçün mövqe sərgiləyən, Azərbaycan vətəndaşlarının əzab çəkməkdə davam etməsi üçün məntiqdən və zəkadan kənar yollarla səylər göstərən Fransa indi də qazanılmış Zəfərə, əldə edilmiş nəticəyə baxmayaraq əxlaqdan və hüquqdankənar bir yanaşma ilə Azərbaycana qarşı düşmənçilik göstərdiyini vurğulayan professor Zakir Avşar deyib: "Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının birliyi və qətiyyətli dəstəyi əsasında qəhrəman Ordunun qazandığı Zəfər nəticəsində işğaldan xilas edilən ərazilər Azərbaycanın ayrılmaz parçasıdır. Heç bir düşmənçilik bu həqiqəti inkar edə bilməz və Azərbaycan öz haqq işində geri çəkilən deyil. Lakin Fransanın türk dövlətlərinə və icmalarına qarşı hansı qərəzli baxışı sərgilədiyi, ortadakı açıq düşmənçilik tarixdə qara bir ləkə olaraq qalacaqdır. Bu hüquqsuz qərarlar bundan o tərəfə keçmək imkanında deyil".

Hacı Bayram Vəli Universitetinin Jurnalistika fakültəsinin dekanı deyib ki, saxtakarlıqla dolu olan erməni yalanlarının əsirinə çevrilən Fransa Milli Assambleyası dünya miqyasında özünə tərəfdarlar tapsa belə, bizim mövqeyimiz və qətiyyətli mübarizəmiz əsla dəyişməyəcək. "Qarabağ Azərbaycandır!", - şüarı dillər əzbəri sevimli ifadə olduğu kimi gerçəkdə də həyat amalımızdır.

Professor Zakir Avşar mövzu ətrafında fikir və düşüncələrini belə tamamlayıb: "Fransanın bu haqsız, yersiz, ağıldan və hüquqdan kənar qərarlarına etiraz edirik. Bu anlamda bütün Azərbaycan xalqını saygı və ehtiramla salamlayır, əziz şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə sağlamlıq arzusu ilə bir daha bəyan edirik ki, canımızla, qanımızla, malımızla, ağlımızın və zəkamızın gücü ilə haqlı mübarizəsində sonadək Can Azərbaycanla birlikdəyik".

# Yeni ildə əfv sərəncamı gözlənilir?



***"Yeni ildə əfv gözlənilmir. Ona görə ki, bu il artıq əfv sərəncamı cənab Prezident tərəfindən imzalanmışdır. Bu səbəbdən də mənim yeni əfv sərəncamı ilə bağlı böyük gözləntilərim yoxdur". Bu sözləri SİA-ya açıqlamasında "Konstitusiya" Araşdırmalar Fondunun prezidenti, DİN yanında ictimai şura rəhbəri Əlimməmməd Nuriyev bildirib.***

Onun sözlərinə görə, artıq bir dəfə əfv sərəncamı olub: "Həmçinin, bu illəri 5 mart tarixində Amnistiya Aktının icrası da başa çatıb. Bu il ərzində yeni bir əfv sərəncamı və Amnistiya Aktının olacağını düşünmürəm. Amma gələn ili istisna etmirəm".

Əlimməmməd Nuriyev sözlərinə belə davam edib: "Onu da qeyd edim ki, bizdə əfv sərəncamları bir qayda olaraq Novruz Bayramı ərəfəsində, yaxud digər mühüm bayramlarda olur. Bildiyimiz kimi, qarşıdan Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi gəlir. Bəlkə bu ərəfədə əfv sərəncamı ola bilər. Lakin əfvin nə zaman verilməsinin qərarını cənab Prezident verir".

***Ayşən Vəli***

# Pençe-Kilit-2022: Türkiyənin antiterror strategiyası davam edir



*Ardıcıl və uğurlu hərbi əməliyyatlar regionun təhlükəsizliyində böyük rol oynamaqdadır*

Ötən ayın sonlarında Türkiyə Prezidenti Administrasiyası məlumat yaydı ki, həyata keçirilən Pençe-Kilit-2022 antiterror straretiyasının növbəti mərhələsi yerüstü hərbi əməliyyatlar şəraitində qərarlaşdırılıb. Qeyd olunub ki, ölkə prezidenti Rəcəb Tayyib Ərdoğanın başçılığı altında keçirilən iclasda Türkiyənin Suriyanın şimalı və İraqda terrorçulara qarşı keçirdiyi Pençe Kilit hava əməliyyatının gedişatı və yerüstü əməliyyatın keçirilməsinə dair planlar müzakirə olunub.

Yaxın tarixə müraciət etsək görərik ki, Türkiyənin Şimali İraq daxilindəki PKK terrorçularına qarşı antiterror əməliyyatları 1990-cı illərdən bəri davam edir və bu əməliyyatlar ilbəil təkmilləşdirilməkdədir. Daha dəqiq desək, bu kimi məsələlərdə Türkiyənin yalnız regional deyil, həm də beynəlxalq müstəvidəki rolu get-gedə artır və bunun müqabilində hərbi potensialı da tərəqqi edir.

Türkiyə öz sərhədlərini terror təhlükəsindən müdafiə etməsi ilə yanaşı, həm də regional təhlükəsizliyin təmin edilməsində önəmli aktorlardan birinə çevrildiyini sübuta yetirib

Məhz hərbi potensialın, yeni silahların və s. hərbi sənaye məhsullarının Türkiyənin daxili gücü hesabına yenilənməsi isə silahlı qüvvələrinin daha genişmiqyaslı hərbi əməliyyatlar keçirməsinə münbit şərait yaradır. Daha dəqiq desək, Türkiyə öz sərhədlərini terror təhlükəsindən müdafiə etməsi ilə yanaşı, həm də regional təhlükəsizliyin təmin edilməsində önəmli aktorlardan birinə çevrildiyini sübuta yetirib.

Eyni zamanda, Türkiyənin qurduğu siyasi münasibətlər strategiyası da öz uğurlu nəticələrini verməkdədir. Misal üçün, Ankara Kürdüstan Regional Hökuməti (KRG) ilə münasibətlərini saxlayaraq siyasi koordinasiya xarakterli planlarını icra edir və ən əsası, PKK-ya qarşı mübarizədə kifayət qədər münbit imkanlar əldə edir. Əbəs deyil ki, Ankara PKK-ya qarşı əməliyyatlarının əksəriyyətini məhz Türkiyə torpaqlarından kənarda - Suriyada və İraqda reallaşdırır və beləliklə, Suriyadakı analoji əməliyyatlarla birlikdə əldə edilən irəliləmə mühiti növbəti mərhələlərə yollar açır.

Pençe əməliyyatları seriyasında hansı uğurlara imza atılıb?

Bu xüsusda biz Türkiyənin daha əvvəlki antiterror əməliyyatlarının gedişatını da xatırlaya bilərik. Məsələn, Ankaranın İraqdakı daha əvvəlki əməliyyatları, eləcə də Polat (1995), Çekiç, Şafak (1997), Güneş (2008) və daha kiçik, adı açıqlanmayan əməliyyatlar əsasən kəşfiyyata əsaslanan, sonradan isə böyük, lakin qısamüddətli yerüstü hücumlarla nəticələnən, habelə havadan dəstək xarakterli uğurlarla müşahidə olunub. Məhz bu kimi əməliyyatlar PKK terror təşkilatının Türkiyəyə hücumlarını müvəqqəti dayandırdı, amma tam kəsmədi. Daha dəqiq desək, İraq ərazisində bazalaşan PKK Suriya qolu ilə paralel şəkildə yeni terror hücumları ətrafında planlar qurdular. Buna isə növbəti səbəblər şərait yaratdı.

PKK-nın İraq-Türkiyə sərhədi boyunca nəzarət və fəaliyyəti artdı və bu, Ankaranı əməliyyat yanaşmasını və Yaxın Şərq Siyasətini yenidən nəzərdən keçirməyə vadar etdi

Belə ki, ABŞ-ın İraqa Azadlıq Əməliyyatı (2003) və yenə də İraqda İŞİD ilə mübarizə kampaniyasından (2014-cü ildən sonra) sonra PKK-nın İraq-Türkiyə sərhədi boyunca nəzarət və fəaliyyəti artdı və bu, Ankaranı əməliyyat yanaşmasını və Yaxın Şərq Siyasətini yenidən nəzərdən keçirməyə vadar etdi. Çünki regional geosiyasətin dəyişdirilməsinə, yeni yanaşma tərzinin formalaşdırılmasına da get-gedə zərurətlər yaranırdı.

Hərbi ekspertlərin fikirlərinə görə, yeni yanaşma sabit və müvəqqəti yerləri davamlı müşahidə etmək məqsədi ilə PUA zərbələrinin endirilməsi imkanlarını birləşdirdi.



Məsələn, təxminən 5000-10000 türk əsgəri təxminən otuz müxtəlif bölgəyə səpələndi. Bu, eyni zamanda PKK-nın Türkiyəyə qarşı hücumlarını əngəllədi, eləcə də İraqın Qəndil dağındakı PKK qərargahları ilə Suriyanın şimal-şərqindəki bazaları arasında gediş-gəlişə demək olar ki, keçilməz baryerlər qoydu. Məhz bunun nəticəsi olaraq Türkiyə Silahlı Qüvvələrinin (TSQ) PKK obyektlərinə, kiçik birliklərə və eləcə də ayrı-ayrı liderlərinə, səhra komandirlərinə ölümcül zərbələr endirməklə məhv edilmələrinə effekt vermiş oldu. Bu xüsusda Pençe adlı antiterror hərbi əməliyyatları öz ardıcıllığı ilə də seçilir:

2019-cu ilin yayında: Pençe 2 və Pençe 3 Sinat-Haftanin də daxil olmaqla İraqın dərinliklərini hədəf aldı, xeyli terrorçu məhv edildi, bazaları dağıdıldı.

2020-ci ilin yayında: Pençe Kartal (hava hücumları) və Pençe Kaplan (quru qoşunları) dağlıq massivlərdə PKK-ya məxsus koordinasiya mərkəzləri canlı qüvvəsi ilə havaya uçuruldu, nüfuzlu səhra komandirləri öldürüldü.

2021-ci ilin fevralında: Pençe Kartal 2 hava hücumları və Qara silsiləsində girovların xilas edilməsi əməliyyatı uğurla reallaşdırıldı.

2021-ci ilin yayında Pençe Yıldırım (Metina bölgəsi) və Pençe Şimşek (Avaşin-Basyan bölgəsi) hücumların təşkili, logistika, nəqliyyat və təlim üçün istifadə edilən PKK mağara komplekslərinə qarşı təmizləmə əməliyyatları həyata keçirildi, xeyli sayda terrorçu məhv edildi və canlı olaraq ələ keçirildi.

Beləliklə, Pençe antiterror əməliyyatları seriyası PKK-nın manevr azadlığını məhdudlaşdırmağa, Türkiyə ərazisini PKK-ya sızma və hücumlardan qoruyan bufer zonanın yaradılmasına, PKK-nın Türkiyə qüvvələrinə və ərazisinə qarşı hücumlar təşkil etmək məqsədilə İraq ərazisindən istifadəsinə qarşı sərt tədbirlər görülməsi üçün Ərbil və Bağdada təzyiq göstərməyə nail oldu. Bundan əlavə, Pençe əməliyyatları PKK üçün əvvəllər təhlükəsiz sığınacaq hesab edilən əraziləri üzə çıxardı, terror şəbəkəsinin gizli planlarını alt-üst etdi. Təxmini hesablamalara görə, bu kimi əməliyyatlarda 2 mindən çox PKK-lı terrorçu məhv edildi.

Pençe-Kilit əməliyyatı hansı üstünlükləri əldə etdi?

Pençe-Kilit əməliyyatı isə cari ilin aprel ayının 18-də start götürdü. Hücumun əsas hədəfi PKK-nın İraqdakı əməliyyat mərkəzi, Metina mağara kompleksləri və zirzəmilərdən ibarət idi. Bu əməliyyatda komando və Xüsusi Təyinatlıların desantları özəl fəaliyyətləri ilə seçildilər. Gücləndirilmiş hava hücumları və artilleriya zərbələrinin ardınca mağara və bunkerlərdə təmizləmə əməliyyatları keçirildi. İyulun sonuna qədər Türkiyə Müdafiə Nazirliyi PKK-nın 289 silahlısının zərərsizləşdirildiyini, hebalə 330 mağara və bunkerin məhv edildiyini bəyan etdi.

MİT-in icra etdiyi əməliyyatları

Qeyd edək ki, hərbi əməliyyatla yanaşı, Türkiyə Milli Kəşfiyyat Təşkilatı (MİT) da öz fəaliyyəti ilə kifayət qədər uğurlara imza atdı. MİT PKK-nın liderlərinə qarşı uzaqdan izləmə və hava hücumları həyata keçirib, onların mühüm hissəsini məhv edib. İyulun sonuna qədər MİT Suriya və İraqda fəaliyyət göstərən 25 hədəfi sıradan çıxararaq ən azı 22 zərbə endirib.

Onu da bildirək ki, MİT bu əməliyyatları Türkiyə torpaqlarında mülki vətəndaşlara, polisə, jandarma qüvvələrinə qarşı törədilən terror hücumlarında əli qana bulaşmış terrorçuları müəyyən edərək, yəni individual xarakterdə məhv edir. MİT-ə dəstək olaraq isə özəl polis qüvvələri, xüsusən də jandarmalar əməliyyatları tamamlayan fəaliyyətlərini icra edirlər. Buna misal olaraq bu yaxınlarda Diyarbakır yaxınlığında PKK-nın qalıq elementlərini təmizləmək məqsədi daşıyan Eren Abluka 28 əməliyyatını da göstərmək mümkündür.





Bütün bunlar isə daha bir amili önə çıxarır ki, Ankaranın Pençe kampaniyasındakı strategiyası PKK-nı sahədə ciddi təzyiqə məruz qoyur. Habelə antiterror əməliyyatları regionun, eləcə də regiondan kənar ölkələrin də təhlükəsizliyinin təminatında böyük rol oynamaqdadır. Bu isə həm də o anlamı daşıyır ki, Ankara qarşısına qoyduğu bütün məqsədlərinə nail olmaq əzmindədir və belə bir gücün mövcudluğu yaxın gələcəkdə regiondakı sabitliyin əldə olunması üçün vacib mə-

# İsrail-Azərbaycan münasibətləri - strateji tərəfdaşlıq



***Müasir dünyamızda dövlətlər arasında münasibətlərin yaranması, əməkdaşlığın möhkəmlənməsi, dünya birliyinin inkişafı sahəsində məqsədlərə birgə nail olması əsas məsələlərdən biri olaraq diqqətdədir. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində ölkəmizlə dünya dövlətləri arasında münasibətlər daha da sıxlaşır, iqtisadi, mədəni, siyasi münasibətlər müstəvisində uğurlar əldə olunur. Dünyanın bir çox ölkələri ilə yanaşı, Azərbaycanla İsrail arasında əlaqələr də yüksələn bir xətlə inkişafdadır. İki ölkə arasında münasibətlərin inkişafına dövlət başçılarının görüşləri təkan verib.***

Azərbaycan Cənubi Qafqazda İsrailin strateji tərəfdaşıdır. İsrail Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biri olub. Ölkələrimiz arasında sıx, etibarlı və hər iki tərəf üçün faydalı əməkdaşlıq mövcuddur. İsrail-Azərbaycan münasibətləri strateji xarakter daşıyır, dövlətlərarası, siyasi və hərbi-texniki tərəfdaşlıq isə ən yüksək səviyyədədir. Xalqlarımız ümumi tarixlə, dini əlaqələrlə, mədəniyyət və musiqi ilə, tolerantlıqla və qonaqpərvərliyə sevgi ilə bir-birinə bağlıdırlar. İsrail Azərbaycanla kənd təsərrüfatı, innovasiyalar, kiber-texnologiyalar, ”ağıllı” şəhərlər sahəsində daim güclənən əməkdaşlığımını davam etdirmək niyyətindədir.

### ”YƏHUDİLƏR AZƏRBAYCANLILARLA BİRLİKDƏ AZƏRBAYCANDA ƏSRLƏR BOYU DOSTLUQ, MEHRİBANLIQ ŞƏRAİTİNDƏ YAŞAYIBLAR”

Bildiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizin İsrail Dövlətində (Təl-Əviv şəhərində) səfirliyinin təsis edilməsi ilə bağlı Sərəncam imzalayıb. Prezident İlham Əliyevin digər Sərəncamı ilə səfirliyin fəaliyyətinin təmin edilməsi ilə bağlı görüləcək tədbirlər müəyyənləşib. Sərəncama əsasən, Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycanın İsraildə (Təl-Əviv şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirilmə məsələlərini və Sərəncamdan irəli gələn digər məsələləri həll etməlidir.

Vurğulamaq yerinə düşər ki, 1993-cü ilin avqustundan İsrailin Azərbaycanda səfirliyi fəaliyyət göstərir. Mövcud əlaqələrin inkişafında təbii ki, Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətləri var. Azərbaycanın sülhsevər və çoxmillətli ölkə olduğunu çıxışların birində qeyd edən Ulu Öndər Heydər Əliyev yəhudilərin əsrlər boyu burda azərbaycanlılarla dost və mehribancasına yaşadığını bildirib: ”Yəhudilər azərbaycanlılarla birlikdə Azərbaycanda əsrlər boyu dostluq, mehribanlıq şəraitində yaşayıblar. yəhudilər Azərbaycanın tam bərabər hüquqlara malik vətəndaşlarıdır və Azərbaycan onlar üçün doğma vətəndir. Bunların hamısı bizim əməkdaşlığımız üçün yaxşı imkan yaradır”.

Ölkələrimiz arasında əlaqələrin inkişafında və möhkəmlənməsində siyasi və iqtisadi maraqlar mühüm rol oynayır. Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi xarici siyasət nəticəsində Azərbaycan ilə İsrail arasında enerji, müdafiə, milli təhlükəsizlik, səhiyyə, kənd təsərrüfatı, informasiya texnologiyaları, turizm və s. sahədə sıx əməkdaşlıq var. Azərbaycanda çoxsayda İsrail şirkətləri fəaliyyət göstərir. Təbii ki, bu əlaqələr - iki ölkə arasındakı münasibətlər qarşılıqlı hörmətə və razılığa əsaslanır.

### AZƏRBAYCANDA ANTİSEMİTİZM YOXDUR VƏ YƏHUDİLƏRƏ DOST MÜNASİBƏTİ GÖSTƏRİLİR

İsrail və Azərbaycan arasında hərbi-texniki əməkdaşlıq daim inkişaf edir və möhkəmlənir. Stokholm Beynəlxalq Sülh Tədqiqatları İnstitutunun məlumatına görə, 2017-ci ildə Azərbaycan İsraildən daha çox silah alan üçüncü ölkə olub (137 milyon dollar dəyərində). İsrail-Azərbaycan münasibətləri təkcə təhlükəsizlik sahəsində tərəfdaşlıqdan ibarət deyil. Azərbaycanlılarla bu ölkədə yaşayan yəhudi icması arasında qədim dostluq və qardaşlıq əlaqələri mövcuddur. Müxtəlif ölkələrdən olan yəhudi mənşəli qonaqlar, həmçinin İsraildən Azərbaycana gələn müsafirlər və diplomatlar qeyd edirlər ki, bu diyarda antisemitizm yoxdur və yəhudilərə dost münasibəti göstərilir. 2600 ildən çoxdur ölkədə yaşayan Azərbaycanın Yəhudi icması heç bir zülmə, qırğına və ya yerli əhali tərəfindən digər nifrət təzahürlərinə məruz qalmayıb. Azərbaycanla İsrail arasındakı münasibətlərdə ən vacib aspektlərdən biri təbii ki, ölkəmizdə yaşayan yəhudi icmasıdır. Azərbaycan Prezidenti İlham Əliyev iki ölkə arasında qarşılıqlı münasibətlərin inkişafında yəhudi icmasının rolunu dəfələrlə qeyd edib. Azərbaycan dövlətinin başçısının vurğuladığı kimi, Azərbaycan və yəhudi xalqları əsrlər boyu sülh və qarşılıqlı anlaşma şəraitində yaşayıb, ölkələrimiz arasında bu dostluq və qardaşlıq münasibətləri bu gün də davam edir. Azərbaycanın yəhudi icması ikitərəfli münasibətlərimizin möhkəmlənməsinə fəal kömək edir. Azərbaycan 2 min ildir yəhudi icması üçün təhlükəsiz sığınacaq və vətəndir. Yəhudi icması antisemitizmin olmadığı bu ölkədə o vaxtdan yaşayıb və yaşayır. Hazırda Azərbaycanda 7 sinaqoq, 2 yəhudi ibtidai məktəbi, 3 bağça və 1 ”Yeşiva” fəaliyyət göstərir.

Azərbaycanın əsl qürur yeri olan Qırmızı Qəsəbə bütün dünyada İsraildən sonra dağ yəhudilərinin yığcam şəkildə yaşadığı yeganə unikal məkandır. Azərbaycanda yaşayan yəhudilərin Şabat bayramının Qırmızı Qəsəbədə keçirməsi həqiqətən də buranın onlara doğma diyar olmasından xəbər verir. Burada ayrı-seçkilik kimi hallardan əsər-əlamət yoxdur. Onlar burada sülh şəraitində xoşbəxt yaşayırlar. Odlar diyarında yəhudilər və müsəlmanlar əsrlər boyu dinc yanaşı və harmonik həyat sürürlər. Azərbaycan özünün tolerantlıq nümunəsi ilə dünyada mövcud olan bütün stereotipləri məhv edir. Azərbaycan nümunəsi göstərir ki, əsas dinlərin - iudaizm, xristianlıq və islam dinlərinin nümayəndələrinin qarşılıqlı hörmət əsasında harmonik inkişaf etmələri üçün bu cür dinc yanaşı yaşamaq mümkündür.

***Nəzakət ƏLƏDDİNQIZI***

## XARİCİ EKSPERT: ”İran heç bir zaman Qarabağ probleminin həll olunmasını istəmirdi”



“İran Azərbaycan dövlətini öz varlığı üçün bir təhdid olaraq görür. Bunun səbəbi də İranın siyasi sərhədləri daxilində yaşayan Güney Azərbaycanlıların varlığını rədd etməsi, Güney Azərbaycan həqiqəti ilə barışmaması, onların vətəndaşlıq haqları və insani hüquqlarının heç birini verməməsidir. Yəni, əslində İran bu məsələni çox rahat həll edə bilər. Lakin İran Güney Azərbaycan toplumu ilə düşmən olduğu üçün bunun cəzasını öz zənnincə bu şəkildə verir”. Bu sözləri SİA-ya açıqlamasında Ankara Gazi Üniversitesi Uluslararası İlişkiler Doktorantı siyasi şərhçi Məhsa Mehdili deyib.

Onun sözlərinə görə, İran bir tərəfdən də heç bir zaman Şimali Azərbaycanda yeni güclənmə istəmir: ”Çünki Şimali Azərbaycan da mahiyyətcə dünyəvi bir dövlətdir. İran bütün bu səbəblərdən Ermənistanı özünə strateji bir müttəfiq olaraq görür. Ermənistan da həmçinin İranı elə görür. İran Ermənistanı Azərbaycana, Güney Azərbaycana, Şimali Azərbaycana və Azərbaycan Türkiyə birliyinə qarşı dəstəkləyir. Ona görə də bizim Ermənistanla olan çətin keçmişimizə rəğmən, münasibətlərimizin normallaşmağa başlaması İrana böyük bir zərbə olacaq. Bu səbəbdən illərlə davam edən gərginliyin sonlandırılması bölgənin rifahı üçün çox yaxşıdır. Əlbəttə bu çox çətindir. Çünki ermənilərin Azərbaycana qarşı böyük cinayətləri olub. İran heç bir zaman Qarabağ probleminin həll olunmasını istəmirdi. Çünki bilirdi ki, bu Azərbaycanın böyük enerjisini alacaq”.

***Ayşən Vəli***

## “Azərbaycan səylərini davam etdirəcək"




**Ceyhun Bayramov ATƏT PA-nın prezidenti ilə görüşüb**

Dünən xarici işlər naziri Ceyhun Bayramov Lodz şəhərində ATƏT Nazirlər Şurasının 29-cu iclasında iştirakı çərçivəsində ATƏT Parlament Assambleyasının (PA) prezidenti Marqarita Sederfelt ilə görüşüb. Xarici İşlər Nazirliyindən S?A-ya verilən məlumata görə, görüşdə Azərbaycan və ATƏT PA arasında əlaqələrin inkişaf perspektivləri, ATƏT PA gündəliyində duran məsələlər, habelə regionda baş verən ən son proseslər, ATƏT PA-nın Azərbaycan-Ermənistan normallaşma prosesinə mümkün töhfələri ətrafında fikir mübadiləsi aparılıb. Nazir Ceyhun Bayramov ATƏT PA prezidentinə bölgədə mövcud olan cari vəziyyət, o cümlədən işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa və quruculuq işləri, mina təhdidləri, habelə Ermənistanla münasibətlərin normallaşdırılması istiqamətində Azərbaycan tərəfindən atılan addımlar barədə məlumat verib.

O, Ermənistanın təxribatlarına və prosesləri ləngitmək siyasətinə baxmayaraq, bölgədə sülh və sabitliyin təmin edilməsi üçün bütün vacib istiqamətlər üzrə, o cümlədən gələcək sülh müqaviləsinin imzalanması, sərhədlərin delimitasiyası, bütün kommunikasiyaların açılışı və digər məsələlərdə Azərbaycanın səylərini davam etdirəcəyini bildirib.

Marqareta Sederfelt ATƏT PA-nın Azərbaycanla əməkdaşlığa böyük əhəmiyyət verdiyini qeyd edib, həmçinin regionda sülh və təhlükəsizliyin təmin olunmasının vacibliyini vurğulayıb və bu xüsusda ATƏT PA-nın sülh prosesini dəstəkləmək üçün parlamentlərarası dialoqu təşviq etməyə hazır olduğunu ifadə edib. Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# İkiüzlü, riyakar-deyiləndə yada Gültəkin Hacıbəyli düşür



**Mövcud fakt və reallıq ondan ibarətdir ki, AXCP və Müsavat kimi partiya sədrləri, eləcə də "Milli Şura" kimi qurumlarda təmsil olunan müxalif xislətli və düşüncəli insanlar bu və ya digər formada xarici anti-Azərbycan qüvvələrə bağlıdırlar. Onlardan maliyyə vəsaiti alır və qarşılığında pozucu əməllərə cəhdlər göstərirlər. Əli Kərimli, Arif Hacılı, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, İsa Qəmbər və digər müxaliflər üçün fərq etmir kimə və hara işləyirlər, əsas odur ki, tapşırıq verilsin və qarşılığı maliyyə ilə ödənilməklə yerinə yetirilsin. Yəni yön və yerin fərqi yoxdur.**

Dünən Qərbə bağlı olub, onlardan pul-para qarşılığında tapşırıq alırdılarsa, bu gün Rusiyanın müəyyən qaranlıq dairələrinin göstərişlərini yerinə yetirirlər. Böyük siyasətdə, nəhəng açıqlamaları və addımları ilə seçilər şəxslərdən biri deyirdi ki, "siyasətdə daimi dostlar və düşmənlər olmur, maraqlar olur". Məhz Əli Kərimli, Arif Hacılı, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, İsa Qəmbər və digərləri də bu prizmadan çıxış etməyə çalışırlar. Cəhd edirlər ki, siyasi pozucu tapşırıqlar qarşılığında daha çox pul qazana bilsinlər. Bunu sübut edən kifayət qədər misallar göstərmək olar. Bakı Ağır Cinayətlər Məhkəməsində haqlarında Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi üzrə məhkəmə iclası zamanı təqsirləndirilən şəxslər Rüstəmov Saleh Məhərrəm oğlu, Rüstəmli Vidadi Valeh oğlu, Məhərrəmov Aqil Əli oğlu, Həsənov Babək Qəzənfər oğlu və Nəsirov Ruslan Şamil oğlunun Rusiyadan AXCP sədri Ə.Kərimliyə pul göndərdiklərini etiraf ediblər. Məhkəmədə sübuta yetirilib ki, maliyyə vəsaitlərini topladıqdan sonra "Sberbank" vasitəsi ilə Ə.Kərimliyə çatdırıblar. Xüsusilə, bu məsələdə Gədəbəy rayonunun keçmiş icra başçısı Saleh Rüstəmov fəallığı ilə seçilib. Ə.Kərimli Baş Prokurorluq və DİN-in birgə bəyanatından sonra acıqlama verdi ki, həqiqətən də, Rusiyadan ona S.Rüstəmov vasitəsilə hər ay pul göndərilib, ancaq bu pul 412 min dollar deyil, azdır. Ə.Kərimli maliyyə vəsaitini az göstərməklə, ətrafında faiz gözləyən şəxsləri aldatmağa çalışır. Ancaq hiyləgərlikdə və tamahlarının iti olmasında Ə.Kərimlidən heç də geri qalmayan Cəmil Həsənli, Gültəkin Hacıbəyli və digərləri qəpiklərindən belə keçmək fikrində deyillər. Təbii ki, Ə.Kərimlidən haqq-hesab tələb edəcəklər.

## Ə.Kərimli riyakar və siyasi dəllal olması ilə yanaşı, həm də dələduzdur

Bütün bu kimi faktlar onu deməyə əsas verir ki, Ə.Kərimli riyakar və siyasi dəllal olması ilə yanaşı, həm də dələduzdur. O, pul xatirinə milli və dövlətçilik maraqlarını satmaqla yanaşı, ortaqlarını da aldatmaqdan və onları gedər-gəlməzə yola salmaqdan belə çəkinməyən şəxsdir. Siyasi prosesləri, qismən də olsa analiz etsək, bir daha o qənaətə gəlmək olar ki, Ə.Kərimli üçün fəaliyyət heç də siyasətdə uğur əldə etmək və nəyəsə nail olmaq deyil. Başlıca şərt, nə yolla olursa-olsun, pul qazanmaq, qrantlar əldə etmək və xarici ölkələrdə mülklər almaq və obyektlər tikdirməkdir. Fakt budur ki, Qərbdəki bəzi anti-Azərbaycan qüvvələrlə yanaşı, Rusiyanın qaranlıq dairələri də ara-sıra AXCP sədri Ə.Kərimliyə maliyyə yardımları göstəriblər. Lakin o da fakdır ki, pul ayıran şəxslər Ə.Kərimli ilə əməkdaşlıq etməklə, böyük yanlışlığa yol verdiklərini başa düşüb, onunla münasibətləri kəsirlər. Yəni müxalifət düşərgəsindəki Ə.Kərimliyə olan inamsızlıq eynilə xarici maraqlı dairələrlə də yaşanmaqdadır. Təbii ki, bu cür xarakterə və düşüncəyə malik partiya sədri ilə sonrakı mərhələlərdə də kimlərinsə yolu davam etdirəcəkləri inandırıcı deyil. Çünki Ə.Kərimli ancaq münasibət qurduğu dostlarına və təşkilatlara atmaq və ya aldatmaq haqqında düşünür. Məhz buna görə də, Ə.Kərimlinin ətrafında olan şəxslər ondan uzaq durmağa və əlaqələri kəsməyə çalışırlar.

## Ə.Kərimli və onun ətrafında olanları yırtıcı məxluqlardır

Demokratik Maarifçilik Partiyasının sədri, millət vəkili Elşən Musayevin SİA-ya açıqlamasında Ə.Kərimli və onun ətrafında olanları yırtıcı məxluqlar adlandırıb: "Bu yırtıcı ünsürlərin, ümumiyyətlə, strategiya, istiqamət planı varmı ki, hələ bir o planın arxa və ön tərəfi də olsun? Yoxdur, təbii. Sadəcə, Gültəkin Hacıbəyli, Cəmil Həsənli və Əli Kərimli özlərini "müqəddəs üçlük" elan edirlər. Aralarında da kim daha çox bekar olsa, sədr kimi də həmin adam danışır. Vəssalam. Məğz budur. Sadəcə, anlamırlar ki, biri beşinə dəyməz, beşi birinə. Fərqində deyillər ki, "Milli Şura" çoxdan tarixin arxivinə gömülüb və nə dediklərindən asılı olmayaraq anındaca gülüş obyektinə çevrilirlər. Düzdür, arada Gültəkin Hacıbəyli Cəmil Həsənliyə "müəllim elmi işlərlə məşğuldur deyə siyasətdən uzaqlaşıb" replikasını ataraq "ağsaqqal"ı mədəni şəkildə pensiyaya göndərir. Amma bir daha təkrar edirəm: onların iddiası olmayan təşkilatın olmayan sədrliyi uğrundadır".

E.Musayev onu da bildirib ki, Gültəkin Hacıbəyli sadəcə eyforiyadadır: "Bu adam nə elədiyini bilmir. Get-gedə də özünü quyunun tam dibinə aparır. Əvvəl-əvvəl guya iqtidara acıq vermək üçün bunları edirdi, fəqət birdən ayıldı ki, artıq qaragüruhun əsas simalarından birinə çevrilib. Yəni, özü də olub bunların tayı. Gültəkini ambisiya bitirdi. O, arzu və istedadı arasındakı fərqi görə bilmədiyi üçün bu günlərə qaldı. Bu adam özünü çoxbilmiş hesab edir. Amma elə ancaq sosial şəbəkələrdə yazdığı statusların mətninə, oradakı atmacalara, uşaqtək yeri gəldi-gəlmədi əlavə etdiyi "smayl"lara diqqət yetirmək kifayətdir ki, adamın hansı səviyyə və məntiq yiyəsi olduğunu görəsən. Gültəkin əvvəllər yerində olmayıb. İndi isə əsl yerindədir, öz qəlbindədir. Ona böyük şəxsiyyətlərin deyil, elə Kərimli və Cəmil kimi uğursuzların yanında olmaq yaraşır".

## Gültəkinin gülü burnunda qalıb

Milli Məclisin deputatı E.Musayevin dediyi kimi, "Milli Şura"nın primadonnası G.Hacıbəyli eyforiyadadır. Kim pul verirsə və buna uyğun da sifariş versə, hay-küy qaldırıb, insanlara qarşı təhqirlər yağdırır, ittihamlar səsləndirir. Hətta bu məxluq o dərəcədə yolunu azıb ki, sadə insanlara belə şər atır, onlar haqqında təhqir xarakterli informasiyalar tirajlayır. Bir növ AXCP sədri Ə.Kərimlinin sifarişlərinə boyun əyən G.Hacıbəylinin sosial şəbəkələrdə həqiqətdən uzaq, şər-böhtan dolu statuslar paylaşır. Onun fikirlərinə diqqət yönəldəndə bir daha aydın olur ki, bu adam ikiüzlü və riyakar adamdı. Parlamentin üzvü olanda dövlətin imtiyazlarından gen-bol istifadə edərək tam komfort şəraitində yaşayanda başqa cür danışırdı. G.Hacıbəylinin o zamanlar başda Ə.Kərimli olmaqla, dağıdıcı müxalifət düşərgəsinin başbilənlərini yerdən-yerə vurduğunu da heç kim unutmayıb. Ancaq elə ki, deputat seçilmədi, mandatdan məhrum oldu G.Hacıbəyli 180 dərəcə dəyişdi. O dövrlərdə mətbuatda yazılanlara diqqət etsək, hər şeyi bir daha açıq-aşkar görərik. G.Hacıbəylinin keçmiş qayınanası Nəhayət Məmmədova keçmiş gəlini haqqında maraqlı fikirlər açıqlamışdır. Bildirmişdir ki, G.Hacıbəyli mənəvi dəyərlərini itirmiş əxlaqsız, sürüşkəndir: "Bu o Gültəkindir ki, doğma əmisinə "torba" tikdi. Onun əmisi İdris Hacıyevin adına "Emil" MMC açdıraraq, rayonda 20 hektar ərazidə gips karxanasına yiyələnmişdi. Sonra qazancı bölüşdürə bilmədiklərindən, Gültəkinin təzyiqi ilə Göranboy rayon icra hakimiyyətinin məhkəmədə qaldırdığı iddia əsasında İdris Hacıyev "cəzalandırıldı", karxana əlindən alındı. Bundan sonra həmin ərazi Gültəkin Hacıyevanın atası Yunis Hacıyevin adına açılmış "Gülüstan" MMC-nin icarəsinə verildi. Doğmasına qarşı nankorluq, xəyanət edən Gültəkin xalqına da, Vətəninə də bu cür addımlar atar, necə ki, indi bu çirkin yoldadır. Gültəkin üçün müqəddəs heç nə yoxdur - nə Vətən, nə ailə, nə doğmaları. Onun məramı-məqsədi şəxsi mənafeləri üçün insanları şərləmək, kələk gəlmək və sair. O, mənəvi dəyərlərini itirmiş əxlaqsızdır. İkiüzlü, sürüşkən, xain, anormal G.Hacıbəyli elə Əli Kərimli, Cəmil Həsənli kimi satqınların, ikiüzlülərin yanında olar. Belələri ən ağır cəzaya məhkumdur".

Bir sözlə, "nə əkərsən, onu da biçərsən" deyiblər. G.Hacıbəyli zamanında etdiyi haqsız davranışlarının cəzasını çəkməkdədir. Düzdür, yenə də özünü o yerə qoymur. Bəd əməllərini genişləndirməklə Ə.Kərimlinin rəğbətini qazanmağa və onun trollarının dəstəyinə ümid etməyə çalışır. Bu səbəbdən də sosial şəbəkələrdə insanları təhqir edir. Ancaq təbii olaraq da təhqir olunanlar onun haqqında hüquqi tədbirlərin görülməsi üçün məhkəmələrə müraciət edirlər. Leyla Arif adlı şəxs də G.Hacıbəyli haqqında məhkəməyə ərizə təqdim edib. Məhz onun ərizəsinə əsasən, G.Hacıbəyli xaricdən ölkəyə qayıdarkən Bakının Heydər Əliyev Beynəlxalq Aeroportunda Dövlət Sərhəd Xidmətinin əməkdaşları tərəfindən saxlanılaraq polisə təhvil verilib. Məlum olub ki, onun barəsində Nəsimi Rayon Məhkəməsinə xüsusi ittiham qaydasında şikayət daxil olub və haqqında Cinayət Məcəlləsinin 147.2 (ağır və ya xüsusilə ağır cinayətdə ittiham etməklə böhtan atma) maddəsi ilə cinayət işi başlanıb. G.Hacıbəyli Nəsimi rayon Məhkəməsinə aparılıb, ifadəsi alınaraq sərbəst buraxılıb.

Maraqlıdır ki, qanunun tələbləri icra edildiyi məqamda G.Hacıbəyli və onun Ə.Kərimli kimi siyasi riyakar dostları hay-küy qaldırıb, ən azı mətbuatın diqqətini özlərinə cəlb etməyə çalışırlar. Ancaq bu ünsürlər anlamırlar ki, insanların şərəf və ləyaqətlərini təhqir etmək olmaz. Digər tərəfdən, xarici tapşırıqlar əsasında böhtan kampaniyası aparmaq yolverilməzdir. Belə hallara yol verənlər qanun qarşısında cavab verməli olurlar.

**İ.ƏLİYEV**

# Rusların "könlünə" dəyən qırğız əməli?



*Qırğızıstan Moskvanın Bişkek rayonlarının adlarının dəyişdirilməsi çağırışlarına reaksiyasından qəzəblənib*

Qırğızıstan parlamentinin Bişkekdə dörd rayonun sovetlərdən qalma adların dəyişdirilməsi təklifinə Rusiya Dövlət Dumasının reaksiyası qırğız deputatları qəzəbləndirib. SİA-nın xarici qaynaqlardan əldə etdiyi məlumata görə, qırğız deputatlar rusların bu əməlini "ölkənin daxili işlərinə qarışmaq" kimi qiymətləndiriblər",

"Rusiya Federasiyası Dövlət Dumasının deputatı Svetlana Jurovanın beynəlxalq qaydalara uyğun gəlməyən, dövlət münasibətlərinə kölgə salan və tərəfdaş ölkənin daxili işlərinə qarışan bəyanatı əsassızdır. Qırğızıstanda rus dili xüsusi yer tutduğundan qanunlarımızdan tutmuş, küçə nişanlarına qədər hər yerdə dövlət dili ilə yanaşı istifadə olunur", - deyə qırğız deputat Kamilə Talıyeva bildirib Deputat onu da qeyd edib ki, inzibati-ərazi bölgülərinin adlarının dəyişdirilməsi suveren dövlətin daxili işidir, heç bir halda Qırğızıstan-Rusiya münasibətləri ilə bağlı deyil. Xatırladaq ki, noyabrın 25-də Qırğızıstan parlamentinin sədri Nurlanbek Şakiyev Bişkekdə keçirilən Milli Kurultayda çıxış edərkən deyib: "Təəssüf ki, əksər regionlarda coğrafi ərazilər başqa dildə adlandırılır. Biz tezliklə onların hamısının adını dəyişib qırğız dilində çağırmalı olacağıq. O cümlədən paytaxtın dörd rayonunun adının dəyişdirilməsi də zəruridir" -deyə bildirib.

Sən demə, bu rusların "könlünə" dəyib

Belə ki, bundan dərhal sonra Rusiya Dövlət Dumasının deputatı, beynəlxalq məsələlər komitəsinin sədr müavini Svetlana Jurovanın bəyanatı yayılıb. "Moskva danışır" radiostansiyasına müsahibəsində deputat belə bir təşəbbüsün "ölkənin rusdilli əhalisinin hüquqlarının pozulmasına" səbəb olacağını bildirib.

Qeyd edək ki, Rusiya Dövlət Dumasının deputatı Gürcüstan və Ukraynada da hər şeyin "rus dilinin pozulması" ilə başladığını deyib və Rusiya prezidentinin bu məsələyə müdaxiləsi ehtimalını qeyd edib. Dövlət Dumasının digər deputatı Aleksandr Yuşşenko isə Qırğızıstan rəhbərliyinin "sovet keçmişinə tüpürdüyünü" bildirib. Digəri, Rusiya Dövlət Dumasının beynəlxalq məsələlər komitəsinin sədr müavini Dmitri Novikov da qırğızları tənqid edərək, Qırğızıstanda "antisovetizmin residivinin" olduğunu qeyd edib.

...Yeri gəlmişkən, Qırğızıstanın baş şəhəri olan Bişkek dörd rayona bölünür - Pervomayski, Sverdlovski, Oktyabrski və Leninski. Qeyd edək ki, son bir neçə il ərzində dəfələrlə onlara qırğız dilində yeni adların verilməsi təklifi irəli sürülüb...

**Ağasəf Babayev**

***Hər bir vətəndaşın təhsil almaq hüququ var. Lakin bəzi hallarda bu hüquq hər kəs üçün əlçatan olmaya bilər. Ən əsası da aztəminatlı olan gənclərin bu problem ilə üzləşməyi qaçılmazdır. Belə halların yaşanmaması üçün isə yeni layihələr ərsəyə gətirilir. Bu layihələrdən biri də günümüzdə Tələbə Təhsil kreditləridir.***






# Təhsil tələbə kreditlərindən hansı tələbələr yararlana bilər?



ARAŞDIRMA

Təhsili maliyyələşdirməyin ən geniş yayılmış yollarından biri tələbə kreditidir. Dünyanın 61 ölkəsində tələbə kreditləri verilir.

Təhsil Tələbə Kreditləri Azərbaycan Respublikasının ali təhsil müəssisələrində və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilatlara təhsil haqqını və təhsil aldığı müddətdə təhsillə əlaqədar xərclərin tam ödənilməsi (yaşayış yerinin kirayəsi, yemək, tədris materialları, nəqliyyat xərcləri və s) üçün verilir.

## Bəs tələbə kreditlərindən kimlər yararlana bilər?

SİA mövzu ilə bağlı araşdırma aparıb. Təhsil müddətində əlaçı olmuş, təhsildə bir il itirməyən tələbələrə müvafiq icra hakimiyyəti orqanının qərarı ilə istifadə etdiyi təhsil kreditini və ya onun bir hissəsini ödəmək öhdəliyindən azad edilir. Beynəlxalq olimpiada, müsabiqə (incəsənətə aid ixtisaslar üzrə təhsil aldıqda) və yarışlarda (idman sahəsində təhsil aldıqda) ilk üç yerdən birini qazanan, təhsil müddətində davamlı olaraq əla, ümumi uğur qazanmış, bu qanunla müəyyən edilmiş şərtlər daxilində son dərəcə istedadlı təhsilalanlara təhsil kreditləri əvəzsiz verilir.

**Elm və Təhsil Nazirliyi tabeliyində, Təhsil Tələbə Krediti Fondunun Vətəndaş müraciətləri üzrə mütəxəssis Fatimə Abdullayeva:** ”Təhsil tələbə krediti Universitetlərin, bakalavriat, magistratura (rezidentura), səviyyələrində, orta ixtisas təhsili pilləsində və peşə təhsili pilləsinin yüksək texniki peşə təhsili səviyyələrində əyani və ödənişli əsaslarla təhsil alan tələbələr kreditdən yararlana bilərlər. Həmçinin aztəminatlı ailələrin ovladlarının ödənişli fakültəyə qəbul olsa belə, təhsildən yayınmadan TTK-dən istifadə edib təhsil almağına, təhsilin əhatə dairəsinin genişlənməsinə, orta yaş insanların da təhsil haqqı xərcini düşünmədən təhsil almağa meyillənmələrinə, xüsusən, regionallarda yaşayan qadınların təhsillərin davam etmələrinə şərait yaradır.

Təhsil Tələbə Kreditləri tələbənin hər semestr üzrə müraciəti əsasında yarımillik təhsil haqlarının ödənilməsi şəklində verilir. Təhsil Tələbə Kreditlərinin iki nö-

v ü

var.

illik 2 % dərəcəsi ilə verilən sosial TTK və illik 6% dərəcəsi ilə verilən standart TTK.

Aşağıdakı tələbələr SOSİAL TTK-dən istifadə etmək hüququna malikdirlər:

ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvləri;

3-cü dərəcə əlilliyi olanlar;

hər iki valideyni (tək valideyni olduqda isə həmin şəxs) aşağıda qeyd olunan kateqoriyaların hər hansı birinə aid olanlar:

a.1-ci və ya 2-ci dərəcə əlilliyi olanlar;

b.işsiz kimi rəsmi qeydiyyatda olanlar;

c.yaşa görə əmək pensiyası alanlar;

d.yaşa görə sosial müavinət alanlar.

Qeyd edək ki, Sosial TTK almaq hüququ olmayan aşağıdakı tələbələr təhsillərinin birinci tədris ilinin ilk semestrindən (yarımildən) etibarən standart TTK almaq hüququna malikdirlər:

Yeni yuxarıda göstərilən kateqoriyalardan birinə cavab verirsinizsə TTK-dən yararlana bilərsiniz. Əlavə olaraq qeyd edirik ki, Təhsil müddətində əldə etdiyiniz TTK-a faiz hesablanmır və sizdən kredit geri qaytarılması tələb olunmur. Krediti təhsil müddətini başa vurduqdan sonra 10 il ərzində qaytara bilərsiniz. Təhsil müddətindən göstəricileriniz yüksək olarsa TTK-dan güzəştlər əldə edə bilərsiniz.

Sosial TTK üzrə aşağıdakı güzəştlər tətbiq olunur:

ÜOMG-si 71 bal və yuxarı olan tələbənin həmin tədris semestri üçün götürdüyü kreditə görə faiz hesablanmır;

Təhsilin normativ müddətində bütün tədris semestrlərində ÜOMG-si 91 bal və yuxarı olan tələbənin təhsilin normativ müddətində aldığı TTK-nin 50 faizi hissəsinin ödənişindən azad olunur. Standart TTK üzrə aşağıdakı GÜZƏŞTLƏR tətbiq edilir:

ÜOMG-si 91 bal və yuxarı olan tələbənin həmin tədris semestri üçün götürdüyü kreditə görə faiz hesablanmır; təhsilin normativ müddətində bütün tədris semestrlərində ÜOMG-si 91 bal və yuxarı olan tələbənin təhsilin normativ müddətində aldığı TTK-nin 25 faizi hissəsinin ödənişindən azad olunur”.

***Havar Şəfiyeva***





# Ermənilər niyə ac və yoxsuldur?



**Silahlanmaya, separatizmə və terrorçuluğa xərclənən milyardlar və Ermənistanın sosial mənzərəsi**

Dunya yoxsullaşır,ərzaq tükənir, ölkələr kasıblaşdığı kimi insanları da arxasınca sürükləyir. Yeni texnologiyaların tətbiqi də yoxsullaşmanı dayandıra bilmir. Buna səbəb öncə dünyada əhali sayının son 150 ildə 7 dəfə artmasıdır. Düzdür, dünyanın 50 milyard insanı yedirdə biləcəyi barədə proqnozlar verilsə də, buna inananlar da azdır. Digər bir səbəb kimi isə dünyanın qida menyüsündən düzgün istifadə olunmaması göstərilir. Əsas məsələ isə bəzi ölkələrin artmaqda davam edən xarici borcudur, məsələn Ermənistan kimi. Bəs Ermənistanın xarici borcu haradan yaranır, SSRİ-nin dağılması ilə özünü müstəqil dövlət kimi dünyaya təqdim edən "hay"ların qeyri-qanuni "vətəni" bu qədər pul kütləsini nəyə xərcləyib. Rəsmi məlumatlara inansaq, 9 milyard dollarlıq bir borc müqabilində bu ölkədə çoxsaylı istehsal müəssisələri inşa edilməli idi ki, bu sahələrdə çalışan minlərlə insane ölkənin çiçəklənməsi və inkişafını qismən də olsa təmin edə bilərdilər. Amma bu olmadı, niyə?

Bu sualların cavabı da çoxdur. Əsas isə Ermənistanın müxtəlif yollarla ölkə iqtisadiyyatının guya inkişafı ilə bağlı cəlb etdiyi xarici investisiyaların əksər payı fərqli üsullar və yollarla işğalçı ordunun tələbatlarının ödənilməsinə, işğal etdiyi Azərbaycan torpaqlarında qanunsuz hərbi birləşmələrin saxlanmasına, xarici ölkələrdən külli miqdar vəsait hesabına silah və sursatların alınmasına sərf edilib. Məhz 9 milyardlıq borcun içində Qarabağda separatçı qurumun silahlanmasına, təxribatçılıq əməllərinin inkişaf etdirilməsinə və qanunsuz qurumun özünün ordu saxlanmasına ayrılan vəsaitlər də var. Ermənistan müxtəlif fondlardan gələn milyardlarla vəsaiti də üstünə gəlsək, Qarabağı 30 il işğal altında saxlayıb. Bütün bunlara öyrəncəli olan, büdcəsinin əksər payını ianələr hesabına formalaşdıran rəsmi İrəvan bundan sonra da vəziyyətin belə davam edəcəyi düşüncəsində idi. Ona görə də ölkəyə yatırılan xarici investisiyaların fərqində belə deyildilər.Silahlanma, qanunsuz hərbi birləşmələrin və separatçı qurumun saxlanmasına, Azərbaycanla yeni müharibələr üçün yeni silahların alınmasına sərf olunan milyardlar əhalinin social problemlərinin həllinə yönəldilmədiyi üçün indi Ermənistanda hər iki nəfərdən biri kasıblıq həddində yaşayır.

Ermənistan rəsmiləri, xüsusən də baş nazir Paşinyan isə bütün bu baş verənləri sanki görməzdən gəlirmiş kimi, yoxsulluğun səbəbini kənar amillərlə əlaqələndirirlər. "İdeologiya ondan ibarətdir ki, yoxsulluğa ancaq əməklə qalib gəlmək olar, başqa variant yoxdur". Bunu hökumətin iclasında baş nazir Nikol Paşinyan Ermənistanda yoxsulluq göstəriciləri ilə bağlı çıxış edib.

Bildirib ki, 2021-ci ildə Ermənistanda yoxsulluq səviyyəsi 26,5% təşkil edib və 2020-ci illə müqayisə etsək, yoxsulluğun səviyyəsində müəyyən azalma var və 2019-cu illə müqayisədə yoxsulluq 0,1 faiz bəndi artıb.

Onun sözlərinə görə, ifrat yoxsulluğun səviyyəsi artıb: "Təəssüf ki, bizdə yoxsulluq səviyyəsi ilə bağlı daha canlı məlumat yoxdur və məni əmin etdim ki, bu, beynəlxalq standartdır: heç bir ölkədə bu il üçün canlı məlumat yoxdur. Bütün hallarda yoxsulluğumuzun strukturunu dərindən təhlil etməyimiz və ideologiyamız çərçivəsində yoxsulluğun aradan qaldırılması strategiyasını hazırlamağımız üçün müvafiq tapşırıqlar verdim. İdeologiya isə ondan ibarətdir ki, yoxsulluğa ancaq iş qalib gələ bilər, başqa variant yoxdur".

Ermənistanda iqtisadçılar isə başqa fikirdədirlər. Onların qənaəti belədir ki, ölkədə hər ikinci adam kasıbdır. İlin əvvəlindən Ermənistana Rusiya, Ukrayna, Belarus və digər ölkələrdən 300 mindən çox vətəndaş gəlib. Bu, Ermənistanın ümumi əhalisinin 10%-ni təşkil edir. Bu, ikirəqəmli artıma təsir göstərməyə və təmin etməyə və vergi daxilolmalarının artımına təsir etməyə bilməz. "Biz belə şəraitdə yoxsulluğun səviyyəsini azalda bilirikmi? İlin sonuna kimi yoxsulluğun səviyyəsi 42%-ə çatacaq. Bu dəhşətlidir. İnsanlar çılpaq yerdə yatırlar. Ermənistanda hər ikinci insan kasıbdır", - Manaseryan vurğulayıb.

O bildirib ki, yoxsulluq səviyyəsinə görə antirekord Şirak bölgəsinə məxsusdur və bu göstərici 60%-i ötüb. "Büdcə məşğulluğu stimullaşdırsa, işsizliyi azaltsa, iqtisadiyyat üçün ixtisaslı kadrlar hazırlasa, onu təqdir etmək olar", - deyə ekspert əlavə edib.

"Ölkə əhalisinin demək olar ki, yarısı yuxarı yoxsulluq həddindədir. İqtisadçı bu rəqəmləri narahatedici hesab edir. Ermənistan hakimiyyəti yoxsulluğun yüksək artım tempini ləngitmək və iqtisadiyyatın müxtəlif sahələrində tənəzzülü dayandırmaq üçün sosial-iqtisadi siyasətdə köklü dəyişikliklər etməlidir". Bunu isə iqtisadçı ekspert Suren Parsyan Statistika Komitəsinin 2020-ci il üçün yoxsulluğun səviyyəsi ilə bağlı məlumatlarını şərh edərkən deyib.

Ekspert qeyd edib ki, 2019-cu ildən etibarən Statistika Komitəsi ölkədə yoxsulluğun müəyyənləşdirilməsi metodologiyasını dəyişib və bu gün yoxsulluğun səviyyəsində 2018-ci illə və ya əvvəlki illə müqayisədə kəskin sıçrayış olub-olmadığını müəyyən etmək çətindir. Parsyan hesab edir ki, metodologiyanın dəyişdirilməsinin yeganə məqsədi var - yoxsulluğun real göstəricilərini gizlətmək, çox güman ki, bu göstəricilər xeyli artıb.

Yoxsulluğun 0,6% artması özlüyündə əhəmiyyətli göstərici olmasa da, 2019-cu illə müqayisədə həddindən artıq yoxsul vətəndaşların gəlir səviyyəsinin azalmasında mənfi tendensiya müşahidə olunur. İqtisadçı hesab edir ki, son dərəcə yoxsulların faizinin azalması əsas pensiyanın və minimum əməkhaqqının məbləğinin artırılması ilə bağlıdır - 2020-ci ildə minimum əmək haqqı ilk dəfə olaraq (68 min dram -138 dollar), minimum istehlak səbətini (65 min dram - 131 dollar) üstələyir. "2022-ci ildə vəziyyət bir qədər fərqlidir, çünki minimum istehlak səbəti 71.000 dram (144 ABŞ dolları) çatıb, minimum əmək haqqı isə dəyişməyib. Yəni, ifrat yoxsulluğun səviyyəsi yenidən yüksələcək".

Parsyan yoxsulluğun yuxarı həddində yaşayan insanların faizinin 43,8%-dən 47,6%-ə yüksəlməsindən narahatlığını ifadə edib. Yəni əhalinin təxminən 4%-i orta təbəqədən yoxsul təbəqəyə keçib. Ekspertin fikrincə, bu, çoxlu sayda insanın işini, biznesini və ya gəlirlərini itirdiyini göstərə bilər: "Bundan başqa, Ermənistan iqtisadiyyatında işləyən yoxsullar anlayışı var. Onlar işləyirlər, müəyyən gəlirlər alırlar, lakin iki nəfərlik ailənin minimum ehtiyaclarını ödəməyə kifayət etmirlər. Bu, onu deməyə əsas verir ki, ölkə əhalisinin yarıdan çoxu yoxsulluq şəraitində yaşayır və problemin həlli üçün yeni mexanizmlərin tətbiqinə ehtiyac var".

Ermənistanda 2022-ci ildə və ondan sonrakı illərdə yoxsulluq səviyyəsinin pisləşəcəyi proqnozlaşdırılır. Bu onunla izah edilir ki, 2022-ci ildə gəlirlərdə artım olmayıb, əksinə, 6,4%-lik yüksək inflyasiya qeydə alınıb (yeri gəlmişkən, bu, 2013-cü ildən bəri ən yüksək göstəricidir). Bundan əlavə, minimum istehlak səbətinə daxil olan ərzaq məhsullarının qiymətlərinin 10% artacağı, 2022-ci ildə isə 4-4,5% artımı proqnozlaşdırılır.

Ekspertlərin fikrincə, hökumət dünya iqtisadi tendensiyalarını nəzərə almaq, ötən illərin təcrübəsindən nəticə çıxarmaq və iqtisadi siyasəti dəyişmək əvəzinə, iqtisadi artıma ümid edərək, əvvəlki illərin təcrübəsini təkrarlamaq və əsaslı xərclərə investisiya qoymaq kimi səmərəsiz yolla gedir. Hakimiyyət hesab edir ki, pensiyalar, müavinətlər və maaşlar iqtisadi artıma gətirib çıxarmır və 2022-ci ildə dəyişməz qala bilər. Amma yoxsulluq yoxsulluğu doğurur. Yoxsulluq içində böyüyən uşaqların yoxsul qalma ehtimalı yüksəkdir, çünki onlar lazımi təhsil almırlar, tibbi xidmətlərdən istifadə əlçatmazdır və s.

Rəsmi statistikaya görə, 2020-ci ildə Ermənistanda yoxsulluq səviyyəsi ölkə əhalisinin 27%-ni təşkil edib. Onlardan 51,1%-i kənd yerlərində, 48,9%-i şəhərlərdə (bunun 21%-i İrəvanda yaşayır) yaşayır. Bundan başqa, kənd əhalisinin 1,2%-i ifrat yoxsulluq həddində yaşayır. Şəhər əhalisi arasında bu göstərici 0,4% təşkil edir.

Ermənistanın iqtisadiyyat naziri Vahan Kerobyan bildirib ki, ən mühüm iqtisadi risk ərzaq təhlükəsizliyi və bunun nəticəsində yoxsulluğun artmasına səbəb olacaq yüksək inflyasiyadır. Həssas təbəqələrdən olan insanların gəlirləri artmasa, indiki yoxsulluq səviyyəsi 27% əvəzinə, ili 42% yoxsulluqla başa vuracaq. İstehlak səbəti getdikcə bahalaşır və əhalinin daha 15%-i yoxsulluq həddindən aşağı olacaq. Rəsmi statistikaya görə, Ermənistanın istehlak bazarında 2022-ci ilin martında 12 aylıq inflyasiya 2021-ci ilin mart ayı ilə müqayisədə 7,4% təşkil edib.

Dünya Bankının (DB) proqnozuna əsasən, 2022-ci ildə Ermənistanda yoxsulluq səviyyəsi ümumi əhalinin 39,6 faizini təşkil edə bilər. DB-nin məlumatına görə, bu il Ermənistanda yoxsulluq səviyyəsi ilə bağlı vəziyyət daha da pisləşəcək. Bundan əvvəl BMT Ermənistanda 500 min insanın qida çatışmazlığından əziyyət çəkdiyini bildirib. Bu barədə məlumat qurumun Dünya Ərzaq Proqramının "Aclıq xəritəsi"ndə öz əksini tapıb. Proqrama əsasən, təkcə son bir ayda bu ölkədə qida çatışmazlığından əziyyət çəkənlərin sayı 10 min nəfər artıb.

**V.VƏLİYEV**



# İctimai nəqliyyat və biz

**Mətanət Məmmədova**

***Biz, hamımız yox, bəzilərimiz nə üçün özümüzü apara bilmirik? Çox yerdə, amma hamımızın gördüyü ictimai nəqliyyatda, həmin nəqliyyat vasitələrində, ona aid dayanacaqlarda, platformada...***

Vallah, adamın ağlamağımı, gülməyimi, əsəbləşməyimi, əsəbindən ölməyimi gəlir, hansı olur, deyə bilmərəm, amma onu deyə bilərəm ki, elə bir gün olmaz ki, bu hisslərin birini keçirmədən ya işə gəlib çıxa biləsən, ya da evə gedib çata biləsən. Məsələn, dayanmısan marşrut avtobus dayanacağında, gözləyirsən. İndi də gözləmək bir qədər uzun çəkir, bu artıq hər kəsə məlumdur. Səbəbi də məlumdur, lakin bir daha da təkrarlayıb "təkrar biliyin anasıdır", məsələsini təsdiq etmək istəyirəm ki, bəlkə... Bəlkə hamı da təsdiqləyər, bu ictimai nəqliyyat vasitələrinə bir əncam çəkilər ki, camaat onlardan ödədikləri pulun qarşılığında istifadə edə bilələr.

Hə, mətləbə gəlim. Gözləyirsən ki, indi marşrut gələr, bir azdan gələr. Gözləyirsən də, nə edəsən? Bir də baxırsan ki, arxadan bir nəfər tüpürdü və o tüpürcək gəlib düz sənin qarşında bərqərar oldu. Nə deyəsən, mən şəxsən dönüb geri baxmıram. Çünki arxamdakı mədəniyyət sarıdan kasıb əhval-ruhiyyədə olan adamın ürəyimi sıxacağından ehtiyat edirəm.

Daha sonra enirsən metroya ki, cəhənnəm olub ya işə tez çatasan, ya da evə. Platformada yanından əlində çar-çanta ilə biri elə sürətlə ötüb keçir ki, inanın, az qalırsan düşəsən qatar yoluna. Ay qardaş, ay bacı, hələ nə qatar var, niyə tələsirsən, hara tələsirsən? Guya elə qatar gələn kimi minib gedəcəksən? Bu olar günün müəyyən saatlarında. Bəlli vaxtlarda bir, iki deyib qatarları yola salandan sonra üçüncüyə minsən, bu da Allahın qisməti, sənə bəxşişi ola bilər.

Yaxşı, bir təhər qatara minmək nəsib, qismətin oldu. Ta qaldın qatarda, İndi gəl, en görüm, necə enirsən. Nə qapının ağzındakılar buna yol verəcək, nə də platformada dayanın, qapının açılmasını və özünü vaxt itirmədən içəriyə salmaq istəyən sərnişinlər. Sən qalırsan ortalıqda, xınc-mınc olandan sonra bir təhər ya bayıra çıxa bilirsən, ya da qatar yola düşür, bir stansiya da irəli getmiş olursan. Əsəblərin pozulur. Lakin nə fayda...

Olur da, Allahın işidir, təsadüflərin təsadüfü nəticəsində ya metroda qatarda, ya da marşrut avtobusda əyləşmisən, görürsən ki, yanındakı yer boşdur, papağını, ya da əlindəki çantanı da oraya qoyursan. Bunları əlində də saxlamaq olar da. Düzdür, boşdur, lakin o yer axı bizim papaq, çantalarımız üçün deyil. Gərəkdir ki, bir sərnişin gəlib başımızın üstündə dayana, ondan xeyli sonra bizə çata ki, əşyanı götür, qoy adam əyləşsin.

Maraqlıdır, vallah, bizim hər işimiz maraqlıdır. Bakıda ictimai nəqliyyatın fəaliyyəti nə qədər maraqlıdırsa, heç özümüzü kənara çəkməyək, bizim hərəkətlərimiz, ictimai nəqliyyatda davranışlarımız ondan da maraqlıdır. Bəs çarə nədir? Çarə odur ki, ictimai nəqliyyatda da dönüş yaradıla. Biz də özümüzdə dönüş yaradaq. Papağımızı boş sərnişin oturacağına yox, qarşımıza qoyub bir fikirləşək. Fikirləşək ki, düzgün hərəkət edəcəyimizə qərar verək. Yoxsa, vallah belə yürüməz...

# Əlillərin sosial müdafiəsində yeni hədəflər

## Prezident İlham Əliyev: "Hər bir vətəndaş bizim üçün qiymətlidir, dəyərlidir"



***Hər bir cəmiyyətin tərəqqisinin əsas məqsədləri sırasında yer alan sosial rifah və onun daim yüksələn xətt üzrə inkişafına nail olunması müasir dövrdə ən vacib vəzifələrdən biridir. Sosial rifah halının, insanların həyat səviyyəsinin yüksək olmadığı cəmiyyətdə və dövlətdə böyük nailiyyətlərlə müşayiət edilən inkişafdan söhbət açmaq mümkün deyil. Sosial siyasət insanların həyatının bütün sahələrini - əmək və məişət şəraitinin yaxşılaşdırılmasını, sosial ədalət prinsipinin reallaşdırılmasını, əhalinin etibarlı sosial müdafiəsinə nail olunmasını, məşğulluq probleminin həllini, maddi və mənəvi tələblərin təminatını və digər bu qəbildən olan halları əhatə edir.***

Ölkədə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə bu sahədə həyata keçirilən uğurlu siyasət nəticəsində əhalinin, onun müxtəlif, o cümlədən, aztəminatlı təbəqəsinin, eləcə də əlillərin etibarlı sosial təminatı diqqətdədir. 44 günlük Vətən müharibəsində sağlamlığını itirmiş oğulların sağlamlığının bərpası və normal həyata qayıtmaları üçün dövlətimiz tərəfindən addımlar atılır.Dövlət başçısının çıxışlarının birində bildirdiyi kimi, "Siz yaralanmısınız. Amma bilin ki, biz sizi sağaldacağıq. Ən ağır yaralanmış hərbçilərimizi həyata qaytaracağıq. Bizim həkimlərimiz indi gecə-gündüz çalışırlar. Bundan sonra da normal həyata qayıtmaq üçün bütün lazımi tədbirlər görüləcək". Əlbəttə ki, vəd və əməl hər zaman özünü təsdiqləyib.



Bildiyimiz kimi, Beynəlxalq Əlillər Günü bütün dünyada hər il dekabrın 3-də qeyd edilir və bu barədə 1992-ci il dekabrın 14-də BMT Baş Assambleyasının qətnaməsi qəbul olunub. Əlbəttə ki, onun hədəfi -ictimai həyatın bütün sahələrində əlillərin hüquqlarının qorunması və geniş ictimaiyyətin diqqətini onların problemlərinə yönəltməkdir. Statistik məlumatlara əsaslanıb deyə bilərik ki, müasir dünyada təxminən bir milyard əlil yaşayır və onlar cəmiyyətin həyatında tamhüquqlu üzv kimi iştirak etmək üçün fiziki, ictimai-iqtisadi və davranış məhdudiyyətləri ilə üzləşirlər. Ölkəmizdə bu kateqoriyadan olan insanlara həssaslıqla yanaşılır. Azərbaycan BMT Baş Məclisi tərəfindən 2006-cı ildə qəbul edilmiş "Əlillərin hüquqları haqqında" Konvensiyaya qoşulub. Ölkəmizdə əlillərin sosial müdafiəsi ilə bağlı həyata keçirilən geniş miqyaslıi tədbirlərin əsası Heydər Əliyev tərəfindən qoyulub. İnsan amilini xüsusi diqqətdə saxlayan görkəmli dövlət xadimi, Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə əlillərin sosial müdafiəsi, onların cəmiyyətə inteqrasiyası ildən-ilə gücləndirilib. Ölkədə əlillərin sosial müdafiəsi ilə bağlı dövlət proqramı hazırlanıb. Həmin proqramda əlilliyin qarşısının alınması, əlillərin reablitasiyası və sosial müdafiəsi haqqında qanunun bütün müddəaları öz əksini tapıb. Bakıda və regionlarda əlillər üçün reablitasiya mərkəzləri, protez-ortopedik müəssislər yaradılıb.Vurğulamaq yerinə düşər ki, əlilliyi olan insanlara Ümummilli Lider Heydər Əliyevin vaxtilə göstərdiyi diqqət və qayğı 2003-cü ildən etibarən, Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilir. "Hər bir vətəndaş bizim üçün qiymətlidir, dəyərlidir. Fiziki cəhətdən qüsurlu insanlar isə xüsusi qayğıya layiqdirlər və biz çalışırıq ki, bunu edək"- deyən dövlət başçısının bu sözləri əlilliyi olan şəxslərin sosial müdafiəsinin daim gücləndirilməsində öz əməli təsdiqini tapır. Son illərdə bu sahədə qanunvericilik bazası daha da təkmilləşdirilir. Cəmiyyətin ümumi inkişaf prosesinə uyğun olaraq, bu kateqoriyadan olan şəxslərin sosial təminatını daha da yaxşılaşdıran, habelə ayrı-ayrı sosial məsələlərin həllinə imkanlar yaradan qanunlar qəbul edilir, eyni zamanda, onların maddi təminatını gücləndirmək məqsədilə yeni təqaüd və müavinətlər təsis edilir, pensiyaların və digər sosial ödənişlərin məbləği mütəmadi artırılır. Azərbaycanda əlil hüquqlarının qorunması, onların sağlamlıqlarının bərpası, sosial rifahının yaxşılaşdırılması, mənzillə təminatı, peşə ixtisasına yiyələnməsi, bir sözlə, tam hüquqlu üzv kimi cəmiyyətə inteqrasiya olunması üçün tədbirlər görülür. Həmin sahələrin hər biri üzrə lazımlı addımlar atılır.

### ƏLİLLİK SAHƏSİNDƏ YENİ MEYARLAR TƏTBİQ OLUNUR

Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında 44 günlük müharibədə qazandığımız Zəfər xalqımızın minlərlə qəhrəman övladının, vətənpərvər gənclərimizin igidliyi və rəşadəti sayəsində tariximizə yazılmış şanlı salnamədir. Ölkəmizin ərazi bütövlüyü, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şücaət göstərən qazilərə, bu yolda canını fəda edən qəhrəmanlarımıza, şəhid ailələrinə dövlətimiz tərəfindən sosial qayğılarının həll edilməsi üçün ardıcıl olaraq zəruri tədbirlər görülür. Onlar üçün qanunvericilikdə nəzərdə tutulmuş imtiyaz və müavinətlərin icrası təmin olunur, bu istiqamətdə yeni sosial dəstək proqramları həyata keçirilir. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən bu istiqamətdə imzalanan fərman və sərəncamlar, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu şəxslərə mərhəmətli qayğısı hər bir ölkə vətəndaşı tərəfindən təqdirəlayiq hal kimi yüksək qiymətləndirilir. Son 3 ildə 160 mindən çox şəxsə, postmüharibə dövründə 3 min qaziyə əlillik təyin edilib. Vətən müharibəsində yaralanmış hərbçilərin əlilliyinin qiymətləndirilməsi, reabilitasiya xidmətləri və vasitələri ilə təminatı, eləcə də əlillik sahəsində yeni meyarlar tətbiq olunur.Artıq ölkəmizdə əlillik sahəsində yeni meyarlar tətbiq olunub. Yeni meyarlara əsasən, əlillik artıq 3 dərəcə üzrə məhdud çərçivədə deyil, orqanizmin funksiyalarının itirilməsi faizinin müəyyən edilməsi əsasında, daha əhatəli şəkildə qiymətləndirilir. Bu zaman şəxsin özünəqulluq, sərbəst hərəkətetmə, istiqamət seçmə, ünsiyyət, davranışına nəzarət etmə, öyrənmə və əmək fəaliyyəti üzrə insanın həyat fəaliyyətinin 7 əsas kateqoriyasının məhdudlaşma dərəcəsi əsas götürülür. 2021-ci il və cari il ərzində 91 min şəxsə əlillik təyin edilib. Təkcə bu ilin 5 ayında əvvəlki illərin müvafiq dövrləri ilə müqayisədə 2-3 dəfə çox - 30 min şəxsə əlillik təyin edilib.



### "İNSANLAR O PROTEZLƏRDƏN İSTİFADƏ EDİB FUTBOL DA OYNAYA BİLƏRLƏR"

Qazilərin keyfiyyətli reabilitasiya xidmətləri ilə təminatında son illərdə müasir tələblərə uyğun qurularaq təchiz olunmuş 12 reabilitasiya müəssisəsi bu sahədə mühüm potensial rolunu oynayır. Müharibənin qurtarmasından ötən müddət ərizində döyüş meydanında sağlamlığını itirmiş hərbçilərin sağlamlığının tam bərpa məqsədi ilə 4-cü nəsil müasir protezlərlə təmin edilib. Vurğulamaq yerinə düşr ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın tapşırığı ilə Heydər Əliyev Fondu "2016-cı ilin Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi" layihəsini həyata keçirib. Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərimiz Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Fondun icra etdiyi xüsusi layihə çərçivəsində Almaniya, İslandiya, İngiltərənin dünyada müasir protez istehsalçıları kimi tanınan şirkətlərinin yüksək texnologiyalı məhsulları ilə təmin ediliblər. "Bilirsiniz ki, Birinci Qarabağ müharibəsində əlini, qolunu, ayağını itirmiş hərbçilərimiz üçün Mehriban xanımın şəxsi təşəbbüsü və nəzarəti altında müasir protezlər gətirilir. O protezlər ki, insanlar o protezlərdən istifadə edib futbol da oynaya bilərlər. Bütün bunlar təmin ediləcək" - deyə Prezident bildirib.

### "BÜTÜN ŞƏHİD AİLƏLƏRİ, QARABAĞ QAZİLƏRİ BİLMƏLİDİRLƏR Kİ, BİZ DAİM ONLARIN YANINDAYIQ, SÖZDƏ YOX, ƏMƏLDƏ"

Qarabağ müharibəsi əlillərinə dövlət qayğısı siyasətinə dəstək məqsədi daşıyan bu layihə çərçivəsində bir qrup Qarabağ müharibəsi əlili Heydər Əliyev Fondunun dəstəyi ilə yüksək texnologiyalı protezlərlə təmin olunub. Döyüşlərində əlil olmuş şəxslər yüksək texnologiyalı reabilitasiya vasitələri, hərəkət edən son - 4-cü nəsil müasir protezlərlə təmin edilib. "Bax, bunu biz edirik... Biz artıq bir neçə reabilitasiya mərkəzi yaratmışıq və yaralanmış hərbçilərimiz orada öz sağlamlıqlarını bərpa edirlər. Bu, çox genişmiqyaslı, böyük vəsait tələb edən proqramlardır. Ancaq biz bunu edirik və bundan sonra da edəcəyik. Bütün şəhid ailələri, Qarabağ qaziləri bilməlidirlər ki, biz daim onların yanındayıq, sözdə yox, əməldə", - Prezident qeyd edib.Dövlət başçısının "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş şəxslərin yüksək texnologiyalı reabilitasiya vasitələri ilə təmin olunmasına dair əlavə tədbirlər haqqında" 30 mart 2017-ci il tarixli Sərəncamı bu istiqamətdə mühüm addımın atılmasına imkan verib. Ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi zamanı sağlamlıqlarını itirmiş qəhrəman Vətən övladları hər zaman diqqət və qayğı ilə əhatə olunub. Onların hər birinin aktiv həyat tərzinin təmin edilməsi istiqamətində ardıcıl tədbirlər görülür. Prezident İlham Əliyevin 8 dekabr 2020-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədilə "YAŞAT" Fondunun yaradılması, Fond tərəfindən qısa müddətdə ciddi işlərin görülməsinə başlanılması nəticəsində davamlı olaraq müharibə əlilləri və şəhid ailələrinin, o cümlədən müharibə veteranlarının sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən intensiv tədbirlər artıq öz təsirli nəticələrini verməkdədir. Eyni zamanda, şəhid ailələri və müharibə əlillərinin mənzil və fərdi evlə, müharibə əlillərinin avtomobillə təminatı tədbirləri yüksək səviyyədə davam etdirilir.Əlillərə mütəmadi olaraq yeni mənzillər, avtomobillər verilir. Onların müalicəsi üçün reabilitasiya mərkəzləri açılır və lazım gələndə isə müalicə olunmaq üçün xarici ölkələrə göndərilirlər. Bir sözlə, dövlətin bu təbəqəyə göstərdiyi qayğı göz önündədir.

***Zümrüd BAYRAMOVA***

# "Dünya çempionatında sensasiyalı oyunlar davam edir"



*İdman şərhçisi, Azərbaycanın əməkdar jurnalisti Fikrət Adıgözəlli SİA-ya müsahibə verib. Həmin müsahibəni təqdim edirik.*

**-Fikrət müəllim, bildiyiniz kimi, Qətərdə keçirilən dünya çempionatının qrup oyunları başa çatır, artıq növbəti tura yüksələn komandaların adına aydınlıq gəlir. Ümumiyyətlə, bu çempionatda sensasiyalı oyunlar çox oldu. Fikrinizcə, sonda kim çempion olacaq?**

- Düşünürəm ki, bu çempionatda həqiqətən maraqlı oyunlar oldu, sensasiyalı nəticələr gördük. Ərəbistan millisinin Argentinanı məğlub etməsi, Mərakeşin Belçikanı məğlub etməsi və s. oyunlar ağlasığmaz nəticələrlə bitdi. Mənim fikrimcə, Braziliya millisinin imkanları bu çempionatda daha yüksək qiymətləndirilir. Onlar finalda ya İngiltərə, ya da Fransa komandaları ilə qarşılaşacaqlar.

**- Fikrət müəllim, bəs Yaponiyanın qrupdan lider kimi çıxmasını gözləyirdinizmi?**

- Yaponlar Almaniyanı 1-ci turdan sonra məğlub etdikdən sonra belə bir ehtimal yarandı ki, onlar qrupda birinci yeri tuta bilərlər. Xüsusilə də, son turda nəzərə almaq lazımdır ki, İspaniyanı çox düzgün hesablama apardılar ki, qrupda məhz birinci yeri yox, ikinci yeri tutsunlar. Yəni, qonşu oyunla Almaniya-Kosta Rika oyununun nəticəsini nəzərə alaraq elə etdilər ki, onlar finala kimi nə İngiltərə, nə də Braziliya ilə qarşılaşsınlar. Yəni, ona görə də Yaponiya 1-ci yeri tutdu.

**- Necə düşünürsünüz, 2002-ci il Dünya Çempionatı ilə bu Dünya Çempionatı arasında oxşarlıqlar varmı?**

-Oxşarlıq dedikdə, onu deyə bilərəm ki, bircə oxşarlıq var ki, o vaxt da Dünya Çempionatı Asiya ölkəsində keçirilirdi və indi də Asiya qitəsində keçirilir. Onu da deyə bilərəm ki, fərqlilik kimi o zamanlar oyun üslubu daha yaxşı və nəticələri də gözəl idi, lakin indiki çempionatla bağlı bunu demək olmaz.

**- Fikrət müəllim, bildiyiniz kimi, 2002-ci ildə də bir çox Avropa ölkələrinin nəhəngləri qrupda qalmış və Seneqal, Koreya və Yaponiya milliləri növbəti mərhələyə yüksəlmişdilər. Bu il də eyni ssenari təkrarlanır. Fikrinizcə, qrupdan çıxan Seneqal, Mərakeş, Yaponiya milliləri hansı mərhələyə qədər irəliləyə biləcəklər?**

- 2002-ci ildən fərqli olaraq bu dəfə bütün dünyanın qitə və materiklərinin komandaları, Antraktida istisna olmaqla - hamısının nümayəndələri 1/8 finala vəsiqə qazanıblar. Bu, ümumiyyətlə, dünya futbol tarixində ilk dəfədir ki, belə bir hadisəyə rast gəlmək olur. Yəni Avstraliya, Şimali Amerika, Cənubi Amerika, Avropa, Asiya və Afrika dünya çempionatında növbəti tura yüksəliblər. O ki qaldı Asiya və Afrika komandalarının hansı mərhələyə qədər irəliləməsinə. Biz qrup mərhələsini gördükdən sonra demək olar ki, istənilən komanda istənilən nəticəni göstərə bilər və istənilən mərhələyə qədər irəliləyə bilərlər. Yəni, burada sensasiyalar o qədərdir ki, heç buna sensasiya da deməzdim, artıq bütün dünyanın müxtəlif ölkələrində futbol oynamağı yaxşı öyrəniblər və bacarırlar. Ona görə də Seneqalın, Mərakeşin və o cümlədən, Yaponiyanın 1/4 finala çıxmasını gözləmək olar.

**- Fikrət müəllim, bəs bu dünya çempionatından gözləntiləriniz nələrdir?**

- Fikrimcə, ümumən oyun və sonrakı əzmkarlıq fiziki, o cümlədən, texniki hazırlığı nəzərə alsaq, bütün bu keyfiyyətlərinə görə Braziliya komandasına üstünlük verirəm.

***Ziya Hikmət oğlu***

# Gənclərdə olan aqressiv davranışların səbəbi nədir?



*Uşaq və yeniyetmələrdə aqressiv davranışlar valideyn və müəllimləri narahat edən vəziyyətdir. Bu mürəkkəb və narahatedici mövzu valideynlər, müəllimlər və digər böyüklər tərəfindən diqqətlə başa düşülməlidir. Bundan başqa, aqressiv davranış nümayiş etdirən gənc adətən aşağıdakı hallar nəticəsində qəzəbini ifadə edir: SİA mövzu ilə bağlı araşdırma aparıb.*

- Özgüvən əksikliyi
- Həmyaşıdları tərəfindən təhqir olunma
- Ailə münaqişələri
- Travmatik hadisələr
- Sevdiyi birini itirmək
- Övladlığa götürülmə vəziyyəti
- Maddə asılılığı
- Valideynlərin boşanması
- İncidilmək
- Depressiya və narahatlıq kimi psixi problemlər.

Aqressiv davranış və zorakılığa meyl məktəbəqədər yaşlı uşaqlarla yanaşı, yeniyetmələrdə də müşahidə olunur. Bu davranışa şahid olan ailə üzvləri və ya digər böyüklər reaksiyasız qalmamalı, bu davranışlarını "bir dövrdən keçir" kimi cümlələrlə ört-basdır etməməlidir. Hər yaşda aqressiya və zorakılıq ciddi problemdir və müdaxilə tələb edir.





### Yeniyetmələrdə nəzarətsiz qəzəbi necə başa düşmək olar?

Yeniyetmələrdə qəzəb nəzarətdən çıxdıqda valideynlərin bunu başa düşmələri çox vacibdir. Əgər uşağınız aşağıdakı davranışlardan birini və ya bir neçəsini nümayiş etdirirsə, onun kənardan kömək tələb edən qəzəb problemləri ola bilər:

- Fiziki təcavüz və ya zorakılıq
- Valideynlər, qardaş-bacı, müəllimlər və ya həmyaşıdlarla həddindən artıq mübahisə
- Qışqırıq kimi emosional partlayışlar
- Məntiqsiz düşüncə və davranış
- Təhdidlər
- İnsanlara və ya heyvanlara qarşı qəddar rəftar
- Cinayət fəaliyyəti
- Əmlakı məhv etmək
- Özünə zərər.

### Valideynlər aqressiv yeniyetmələrə necə kömək etməlidirlər?

Valideynlərin övladlarını sevmək və dəstəkləmək üçün əllərindən gələni etməlari çox vacibdir, lakin onlar yeniyetmənin duyğularını və ya hərəkətlərini idarə edə bilməyəcəklərini nəzərə almalıdırlar. Buna nail olmaq üçün valideyni olduğunuz gəncə uyğun aşağıdakı davranışları həyata keçirə bilərsiniz.

### Gənc insanlar üçün məhdudiyyətlərin və gözləntilərin yaradılması

Gənclər üçün yaradılan sərhədlər və gözləntilər gənclərin aqressiv davranışının azalmasına və müəyyən səviyyəyə çatmasına öz töhfəsini verə bilər. Uşağınızla danışın ki, bu qaydalar pozulduqda nə baş verəcəklərini bilsinlər. Uşağınıza izah edin ki, bu qaydalar onu təhlükəsiz və zərərdən qorumağa kömək edir. Uşağınıza sevginizi ifadə edin. Yeniyetmələr valideynlərinin onları sevdiyini və qayğı göstərdiyini bilmək istəyirlər.

**Danışmaq**

Danışmaq şəxsiyyətlərarası qarşılıqlı əlaqədə ən vacib amillərdən biridir.

### Hobbi tapmağa həvəsləndirmə

Hobbi həvəsləndirmələri yeniyetmələrə öz mənfi emosiyalarını idarə etməyə və başqa bir məşğuliyyətlə özlərini məşğul etməyə imkan verir. Böyüklər uşaqlarını qəzəbdən çıxış yolu tapacaq hobbidə iştirak etməyə təşviq etməlidirlər. Buraya idman, musiqi, yoqa, meditasiya, yemək bişirmək, incəsənət və ata minməkdən tutmuş hər şey daxildir.

Dərslərdə qiymətlərin aşağı olması, axşam gec yatıb günortaya qədər yatmaq, dağınıq otaqlar, uyğun olmayan paltar və dost seçimi... Bunların hər biri yeniyetmə uşaqları olan ana və atalar üçün münaqişə mövzusu ola bilər. Üstəlik, bir valideyn olaraq, bu mövzularda nə qədər müsbət dil istifadə etsəniz də, yeniyetmə övladınız sizə zidd olan yola gedə bilər.

ABŞ-da 11-17 yaş arası 3000 gənclə aparılan araşdırmada kifayət qədər yatmayan gənclərin depressiyaya düşmə riskinin daha yüksək olduğu müəyyən edilib.

***Ayşən Vəli***

# Çaşan Fransa Senatıdır

***Fransanın açıq şəkildə təxribatla məşğuldur. Makron diktator olduğunu artıq gizlədə bilmir. Preziden üsul idarəli Fransada millət vəkilləri hər iki palatada prezidentin diqtəsi ilə oturub-dururlar. Makron "oturun" deyən kimi "dünya tarixində misli görünməmiş hadisələrə ev sahibliyi etmiş" Fransa deputatlarının rəzilliyi, mütiliyi, diktatora yaltaqlığı sayəsində yeni tarix yazır. Bu gün Fransanın hakimiyyət orqanlarının, o cümlədən parlamentin hər iki palatasının təxribatçı addımları təəssüf doğurur.***

Bu hərəkətlər regionda yeni müharibənin alovlanmasına rəvac verir, Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin həyata keçməsinə mane olur. Eyni zamanda, qonşu dövlətlərə qarşı ərazi iddiaları üzərində qurulan erməni şovinist ideologiyasının məqsədlərinə xidmət edir, Ermənistanda revanşist meyylərin armasına təkan verir.

Qarabağda separatçılığın yenidən baş qaldırması meylləri də rəsmi Parisin ikibaşlı oyunlarından qaynaqlanır. Özünü demokratiyanın "qoruyucusu" kimi təqdim edən Fransa əslində təcavüzkarın, terrorçunun yanında olduğunu göstərir. Bu qətnamə bir daha təsdiq etdi ki, 30 ilə yaxın müddətdə Fransa da Ermənistanla birlikdə torpaqlarımızın işğalında və o işğalın davam etməsində iştirak edib və işğalçı dövlətlə birlikdə də məsuliyyət daşıyır. Qətnaməni qəbulunda başqa bir məqsəd Fransanın regiona yenidən qayıtmaq istəyidir. Paris bu yolla Azərbaycana təzyiq etməyə çalışır, özünü danışıqların arbitri kimi təqdim edir, hakim rolunda çıxış etmək istəyini gizlətmir. Amma bu ölkənin rəhbərləri də, parlamentariləri də başa düşməli və anlamalıdırlar ki, belə bir qətnamə heç bir nəticə verməyəcək, Azərbaycanı bu üsulla qorxutmaq mümkün deyil. Fransa Əlcəzair soyqırımını unutmasın.

Azərbaycan Prezidenti İlham Əliyev Astanada MDB Dövlət Başçıları Şurasının iclasında çıxışı zamanı bu barədə danışarkən bildirib ki, Fransa prezidenti Emmanuel Makron əməlləri ilə Fransa ilə Azərbaycan arasında dostluq və balanslaşdırılmış münasibətlərin tarixinin üstündən xətt çəkib. "Biz həmişə Fransanın əvvəlki prezidentlərinin fəaliyyətini, əlbəttə ki, Fransadakı erməni diasporunun müəyyən faktoruna baxmayaraq, balanslaşdırılmış kimi qəbul etmişik, lakin indiki Fransa rəhbərliyi mahiyyət etibarı ilə bütün bunların üstündən xətt çəkib", - Prezident görüş zamanı deyib.

İlham Əliyev Azərbaycanın Parisdəki səfirliyinə iki dəfə basqın edildiyini deyib. Azərbaycan prezidentinin sözlərinə görə, telefon danışığı zamanı cənab Makron ona hücumların təkrarlanmaması üçün tədbirlər görəcəyini vəd edib. "Amma bu, yumşaq desək, doğru olmadığı ortaya çıxdı", - deyə cənab İlham Əliyev əlavə edib.

Əslində, Fransa hökumətinin belə münasibəti ilə Fransa Azərbaycan-Ermənistan münaqişəsinin həllində iştirak etmək imkanları axtarır. İlham Əliyev və Makron, eləcə də Ermənistanın baş naziri Nikol Paşinyan və Avropa Şurasının rəhbəri Şarl Mişelin iştirakı ilə Praqada keçirilən danışıqlarda Avropa İttifaqının Ermənistan-Azərbaycan sərhədində mülki monitorinq missiyasının yerləşdirilməsi barədə qərar qəbul edilib. Daha sonra "France 2" telekanalının efirində Emmanuel Makron Qarabağı "mübahisəli" və "beynəlxalq səviyyədə tanınmayan" region adlandırıb, həmçinin Azərbaycanı "çoxlu insanın ölümünə səbəb olan dəhşətli müharibəyə başlamaqda və bu əraziləri ələ keçirməkdə" ittiham edib.

Fransa Senatının 2022-si il noyabrın 15-də məlum qətnaməni qəbul etməsinin ardınca bu ölkənin Milli Assambleyası da noyabrın 30-da Azərbaycana qarşı qərəzli siyasi aksiya təşkil edib. Bu çirkin qərar beynəlxalq hüquq normalarına və prinsiplərinə açıq hörmətsizlikdir. Bunu Milli Məclisin sədri Sahibə Qafarova parlamentin iclasında deyib. O bildirib ki, dövlətimizin ərazi bütövlüyünü və suverenliyini hədəf alan qərəzli, qeyri-obyektiv və ədalətsiz aktı qəti şəkildə rədd edir və bu addımı siyasi riyakarlıq kimi qiymətləndirirk.

Spiker bildirib ki, Fransa Senatı və Milli Assambleyasının qəbul etdiyi bu qətnamələr Fransa qanunverici orqanlarının siyasi avantüra meydanına çevrilməsindən xəbər verir: "Azərbaycan torpaqlarının Ermənistan tərəfindən 30 ilə yaxın işğalı dövründə münaqişənin dinc yolla nizama salınması üçün göstərilən səylərin nəticə verməməsinin əsas səbəbi təcavüzkar dövlətin öz adı ilə çağırılmaması, vasitəçilik vəzifəsini öhdəsinə götürən dövlətlər, xüsusən Fransa tərəfindən ikili standartlara yol verilməsi, işğalçı dövlətlə işğala məruz qalan dövlətin bir tutulması, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərinin yerinə yetirilməməsi, beynəlxalq qaydalara meydan oxuyan Ermənistan dövlətinə münasibətdə lazımi qətiyyətin göstərilməməsi, bir sıra hallarda isə onun açıq-aşkar şirnikləndirilməsi olmuşdur".

Təəssüflə qeyd edilib ki, bu gün Fransanın hakimiyyət orqanlarının, o cümlədən parlamentin hər iki palatasının təxribatçı addımları Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin həyata keçməsinə, münasibətlərin normallaşmasına zərbə vurur, qonşu dövlətlərə qarşı ərazi iddiaları üzərində qurulan erməni şovinist ideologiyasının məqsədlərinə xidmət edir, revanşist və aqressiv separatçı qüvvələri həvəsləndirir, regionu yeni təhlükələrə yönləndirir. Populist siyasi baxışlar əsasında Fransanın daxili siyasi gündəliyi və müxtəlif lobbi dairələrinin maraqlarının Cənubi Qafqaz regionuna daşınması qəbuledilməzdir", - deyə o qeyd edib.

Bu qətnamə göstərdi ki, Fransa təcavüzkarın, terrorçunun, uşaq başı kəsənin yanındadır. Belə bir qətnamə BMT Nizamnaməsinin kobud surətdə pozulmasıdır. Qətnamədə Azərbaycana qarşı sanksiyaların həyata keçirilməsi tələbləri irəli sürülür. Bədnam sənəddə "Azərbaycanın Ermənistan ərazisindən və Laçın dəhlizindən çəkilməsi" tələb olunub. Layihə müəllifləri "Azərbaycan və onun tərəfdaşlarının Ermənistanın suverenliyi və ərazi bütövlüyünə hörmət etməsini, həmçinin bütün erməni hərbi əsirlərin qaytarılmasını" tələb edirlər. "Azərbaycan hökumətindən 4 yanvar 1969-cu il tarixli hər növ Diskriminasiyanı Qadağan edən Konvensiyaya uyğun olaraq erməni əhalisinin, erməni dini və mədəni mirasının mühafizəsi üçün tədbir görmək" tələb edilir. Bununla yanaşı, Fransa hökumətinə "Dağlıq Qarabağda humanitar büro açmaq" təklif edilir. Təkliflər arasında qondarma "Dağlıq Qarabağ Respublikası"nın müstəqilliyinin tanınması da yer alır. Eyni zamanda Fransa hökumətindən Qafqazda sülhün bərqərar olması üçün Azərbaycanla diplomatik prosesə başlamaq tələb olunur. Ermənistan-Azərbaycan sərhədində beynəlxalq statuslu sülhməramlı qüvvələrin yerləşdirilməsi də təkliflər arasında var.

Fransa həmçinin Ermənistanın işğalçılıq siyasətini dəstəkləyir və onu pozuculuq fəaliyyətində həvəsləndirir. Buna baxmayaraq Fransa Senatında belə bir qətnamənin qəbulu Azərbaycanda sərt reaksiya ilə qarşılanıb. Artıq Azərbaycan Milli Məclisində Fransanın Əlcəzairdə XX əsrin tən ortasında 1 milyon dinc insanı qətlə yetirməklə soyqırımı həyata keçirməsi faktı ilə bağlı parlament dinləmələrinin keçirilməsi və qətnamə qəbul edilməsi təklifləri irəli sürülüb.

Fransada bu qətnamənin hüquqi nəticələri yoxdur, o, heç bir əhəmiyyət daşımır. Lakin bu, Fransanın ümumi siyasətini əks etdirir və bizim üçün qəbuledilməzdir. Əlbəttə biz də Fransaya dair xarici siyasətimizdə lazımi düzəlişlər etməliyik. Fransanın ermənipərəst mövqeyi əsas verir ki, onun hansısa vasitəçilik, yaxud Ermənistan-Azərbaycan münasibətlərinə aid hansısa təşəbbüsü Azərbaycan tərəfindən qəbul olunmasın. Suveren hüquqlarımız imkan verir ki, Qarabağda məsələni istədiyimiz kimi həll edək. Amma Fransanın da məqsədi budur ki, sülhməramlı missiya adı ilə beynəlxalq mandata, BMT mandatına nail olsunlar, amma bu, xüsusi qətnamə ilə qəbul oluna bilər. Məhz bu təhlükəyə qarşı addımlar atılmalıdır.

Müharibə bitəndən sonrakı proseslərə nəzarət edən ölkə Azərbaycandır. Yeni reallıqda prosesləri əsasən Azərbaycan istiqamətləndirir. Bu baxımdan Fransanın bu cür qətnamə ilə proseslərə təsir etmək imkanı sıfıra bərabərdir. Fransa Senatının qəbul etdiyi qətnamə ilə bağlı Azərbaycan XİN-in də münasibəti dəyişməzdir: "15 noyabr 2022-ci il tarixində Fransa Senatında qəbul edilmiş "Azərbaycana qarşı sanksiyaların tətbiqi və onun Ermənistan ərazisindən dərhal geri çəkilməsi, 9 noyabr 2020-ci il tarixli atəşkəs razılaşmasına riayət etməsi tələbi və iki ölkə arasında dayanıqlı sülhün bərqərar olmasına yönəlmiş bütün təşəbbüslərin təşviq edilməsi" adlı qətnamə tamamilə həqiqətdən uzaqdır, yalan və iftira dolu müddəaları əks etdirir və açıq təxribat xarakteri daşımaqla Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması prosesinə xələl gətirilməsinə xidmət edir".

Fransa Parlamentinin aşağı palatasında Azərbaycan əleyhinə qəbul edilmiş qətnaməyə Azərbaycan Ombudsmanı da münasibət bildirib: "Hesab edirik ki, bir-birinin ardınca belə qərəzli qətnamələrin qəbulu nəinki Azərbaycanla Ermənistan arasında sülh prosesinə mane olur, regionda siyasi, iqtisadi və mədəni əlaqələrin inkişafına mənfi təsir göstərir. Bu qətnamə ilə Fransa Ermənistanın Azərbaycana qarşı etnik və dini nifrət zəmnində həyata keçirdiyi işğalçılıq siyasətini dəstəkləyir, beynəlxalq hüququn hamılıqla qəbul edilmiş ümumbəşəri prinsiplərindən olan suverenlik və ərazi bütövlüyü prinsiplərinə qarşı çıxır...".

İsrail Təhlükəsizlik Akademiyasının Fransa Milli Assambleyasının anti-Azərbaycan qətnaməsini pisləyən bəyanatla çıxış edib: "Fransa Senatının ardından Fransa Milli Assambleyasının da Azərbaycana qarşı qəbul etdiyi qətnamə tamamilə Fransanın erməni təəsübkeşliyindən qaynaqlanır. Fransa Senatı və Milli Assamnleyası Azərbaycanın öz qanuni və beynəlxalq hüquqla tanınan torpaqlarını məhz BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 ardıcıl qətnaməni icra edərək işğaldan azad etməsi halı ilə qətiyyən barışmır. Fransa Senatı və Milli Assambleyası bu irqçi və ikili standarrları sərgiləyən ermənipərəst xarakterli qətnamələri ilə işğalçılığa erməni separatizminə və erməni cinayətlərinə birbaşa dəstək verməkdədir".

Fransa sadəcə özünün ermənipərəstlik irqçilik və imperialist qəsbkar siyasətini yeritməyə çalışaraq Qarabağ bölgəsində Azərbaycana qarşı son dərəcə qərəzli yalan və böhtan dolu anti-kampaniyalara başlayıb. Qarabağ Azərbaycanın qanuni və hüquqi ərazisidir və tarixi Azərbaycan torpağıdır. Dünyanın ruhən sağlam insanları regionda gedən prosesləri diqqətlə izləməkdə və hadisələrə hüquqi qiymət verməkdədirlər. Təcavüzkarla və onlara maşa tutanlar isə daim məğlubiyyət acısı dadacaqlar. Qarabağ Azərbaycandır!



**V.VƏLİYEV**

YENİ BAXIŞ

# Sülhməramlıdan sülhməramsıza: limit tükənir!










*Çıxış yolu isə var və onu qanuni, hüquqi cəhətdən realizə etmək kifayət qədər mümkündür...*

Etiraf edək ki, 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli bəyanata əsasən Rusiya sülhməramlı kontingentinin (RSK) müvəqqəti olaraq Qarabağa yerləşdirilmələri ölkə ictimaiyyətinin əsas çoxluğu tərəfindən elə də müsbət qarşılanmamışdı. Lakin daha bir fakt da bu idi ki, Azərbaycan üzərinə götürdüyü bütün öhdəlikləri zamanında və vaxtında icra etməsinə rəğmən, nəinki Qarabağdakı erməni separatçıları və qanunsuz silahlı birləşmələri ərazilərimizi tərk etmədilər, eləcə də RSK-nın həmin istiqamətdə üzərinə düşən öhdəliyini yerinə yetirməməsi artıq danılmaz fakta çevrilib. Və bu da azmış kimi, Ermənistandan Qarabağa hərbi texnikaların daşınması, RSK komandanlığının cinayətkar rejimlə himayədarlığı, əl-ələ verib istehkamlar qurması, sülh yaratmaq yerinə ərazilərimizdə zirehli texnikalarla, qumbaraatan və minaatanlarla hərbi təlimlər keçirməsi, rəsmi Bakının icazəsi olmadan xarici ermənipərəst dairə mənsublarının, həmçinin Ermənistanın rəsmi şəxslərinin Xankəndiyə çoxsaylı səfərləri, vəzifə təyinatlar və s. kimi yüzlərlə faktlar necə deyərlər, yağışdan sonrakı göbələklər kimi artmaqdadır.

### Təəssüf yaradan və hiddət doğuran fakt budur ki, hazırda həmin suallar açıq olaraq qalmaqda davam edir...

Bu zaman belə bir sual yaranır: əslində rəsmi mandata sahib olmayan və artan həyasızlıq sindromu hansı məqsədlərə hesablanıb? Bəlkə RSK (əslində Kreml) üçtərəfli bəyanatı, eləcə də Bakı ilə imzalanan müttəfiqlik sazişini özünə sipər edərək arxa planda (!) tamamilə zidd, yaxud Azərbaycanın ərazi bütövlüyünə təhdid yaradacaq qaranlıq işlərlə məşğuldurlar? Təəssüf yaradan və hiddət doğuran fakt budur ki, hazırda həmin suallar açıq olaraq qalmaqda davam edir...

Bu kimi sualların açıq qalması isə cəmiyyətdə yeni suallar yaradır - belə olan halda RSK-nın Qarabağda qalmasına nə ehtiyac var? Axı Azərbaycan dövləti və xalqı 30 il boyunca beynəlxalq vasitəçilər, təşkilatlar tərəfindən həll edilməyən 1 NÖMRƏLİ PROBLEMİ (!!!) cəmi 44 gündə həll etdisə, yerdə qalan problemləri də özü həll etmək gücündə və qüdrətindədir!

### Rusiyanın Müdafiə Nazirliyi dəfələrlə Azərbaycan Müdafiə Nazirliyinin Qarabağdakı toponimlərin adlarının düzgün ifadə edilməsi ilə bağlı etdiyi müraciətləri qulaqardına vurması ilə nə demək istəyir?

Qeyd edilənlərlə yanaşı, Rusiyanın Müdafiə Nazirliyi dəfələrlə Azərbaycan Müdafiə Nazirliyinin Qarabağdakı toponimlərin adlarının düzgün ifadə edilməsi ilə bağlı etdiyi müraciətləri qulaqardına vurması ilə nə demək istəyir? Buna da bir izahı olacaqmı? Olmayacaqsa, ya da qəsdən edirsə ən azından bunu etiraf etsin. Amma bunu da etmirlər və Azərbaycan xalqının hiddətinə səbəb olurlar.

Azərbaycan Prezidenti İlham Əliyev Rusiyanın dövlət başçısı Vladimir Putinlə görüşləri zamanı dəfələrlə Rusiyanın münaqişənin həll olunması istiqamətindəki vasitəçilik missiyasını yüksək qiymətləndirib, habelə ölkələrimiz arasındakı münasibətlərin strateji xətt üzrə inkişaf etdiyini vurğulayıb. Yaxşı, bəs Rusiyanın hərbi-siyasi rəhbərliyi verilən bu dəyəri nəyə görə doğru-dürüst qiymətləndirməyi bacarmır? Yaxud elə sanır ki, verilən dəyərdən istədiyi kimi sui-istifadə edə bilər? Bax, bu məqamda da əfsuslar olsun ki, suallar hələ də açıq qalmaqda davam edir...

### Bütün bunlardan sonra RSK-nın RF-nın MN-i "simasındakı" davranışları artıq ciddi şübhələr, üstəlik, faktlara əsaslanan şübhələr doğurmaqdadır!

Yeri gəlmişkən, Azərbaycan tərəfi daha əvvəl Qarabağ iqtisadi rayonunun toponimlərini və xəritəsini Rusiyanın Müdafiə Nazirliyinə, RSK-nın əvvəlki və hazırkı komandanlığına, habelə Türkiyə-Rusiya birgə monitorinq mərkəzinə rəsmi siyahı qismində təqdim edib. Bütün bunlardan sonra RSK-nın RF-nın MN-i "simasındakı" davranışları artıq ciddi şübhələr, üstəlik, faktlara əsaslanan şübhələr doğurmaqdadır. Bunun da sübutu var...

Misal üçün, RF MN-i ən azından Azərbaycan MN-nin ardıcıl olaraq irəli sürdüyü haqlı iradlarını nəzərə almalı və reaksiya göstərməli idi. Ancaq bu da olmadı və əksinə, "bülletendə" növbəti təxribatçı ifadə əmələ gəldi - "Dağlıq Qarabağın silahlı formalaşmaları" (?!-R.R.)

Artıq buradan belə bir nəticə hasil etmək olar - RSK nəinki Azərbaycan xalqının ümidlərini doğrultmadı, üstəlik öz kirli fəaliyyətləri ilə Qarabağda sülhün bərqərar olmasına manəə olan bütün vasitələrdən istifadə edirlər.

Əbəs deyil ki, artıq Azərbaycan cəmiyyətində "Rusiya sülhməramlısı" ifadəsi "Rusiya sülhməramsızı" ifadəsi ilə əvəzlənib

...Və beləliklə, RSK məntiqcə Qarabağa gəldiyi ilk günündən özünün destruktv fəaliyyəti ilə seçilməyə başlayıb. İndi isə həmin destruktiv fəaliyyətin açıq-aşkar pozuculuq məcrasına keçid alması səbr kasasının dolması ilə nəticəsini tapır. Misal üçün, RSK Qarabağda sülhün və əminamanlığın təmin olunması yerinə Azərbaycan ərazilərinə iranlı təxribatçı-diversiya qruplarını buraxır, erməni separatçılarının atəşkəsi pozması müqabilində atəşkəsin Azərbaycan SQ-i tərəfindən pozulduğunu özünün rəsmi bülletenində qeyd edir və s.

Ümumiyyətlə, mənzərə nəinki ürəkaçan deyil, əksinə, ürəkbulandırandır. Əbəs deyil ki, artıq Azərbaycan cəmiyyətində "Rusiya sülhməramlısı" ifadəsi "Rusiya sülhməramsızı" ifadəsi ilə əvəzlənib və bunun da sübutu RSK-nın separatçı-quldur rejimin əlində alətə çevrilməsidir. Ya da RSK süni şəkildə belə bir situasiyanı yaratması ilə Rusiyanın məlum dairələrinin sifarişlərini həyata keçirirlər.

### Bu fakt RSK-nın qeyri-sabitliyin yaranması, təhlükənin daimi mövcudluğu üçün qarant olma anlamını ortaya qoyur

Təbii ki, hələ də Azərbaycanın Qarabağ iqtisadi rayonunda var-gəl edən separatçı-quldur rejimi üçün belə bir mühitin yaradılması əlverişlidir. Əgər erməni quldurları əllərinə silah alıb, rahat şəkildə hərəkət edirlərsə, hərbi istehkamlar qururlarsa, hərbi-texniki təchizatlarını istədikləri mövqelərdə yerləşdirirlərsə demək ki, bu fakt RSK-nın qeyri-sabitliyin yaranması, təhlükənin daimi mövcudluğu üçün qarant olma anlamını ortaya qoyur. Məqsəd isə mandatsız sülhməramsızların regionda qalma müddətlərini uzatmağa hesablanıb. Bütün bunlardan sonra "bizə RSK lazımdırmı?" sualının verilməsi kifayət qədər haqlı və məntiqlidir. Çıxış yolu isə var və onu qanuni, hüquqi cəhətdən realizə etmək kifayət qədər mümkündür...

**Rövşən RƏSULOV**




Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu" çərçivəsində hazırlanıb.*

# Siyasi partiyalar haqda qanun layihəsi nələri dəyişməyi nəzərdə tutur?

***Xəbər verdiyimiz kimi, bu həftə Milli Məclisdə "Siyasi partiyalar haqqında" qanun layihəsi müzakirə olunub. Layihənin 1-ci oxunuşunda Milli Məclis sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli layihəsinin zəruriliyi, onun konseptual baxımdan vacibliyi ilə bağlı bəzi məqamları diqqətə çatdıraraq hazırda qüvvədə olan müvafiq qanunun 30 il əvvəl qəbul edildiyini deyib və Azərbaycanın həmin dövrü ilə indiki dövrü arasında müqayisə apararaq bu müddətdə ölkənin ictimai-siyasi həyatında baş verən köklü dəyişiklikləri xatırladıb.***

Xüsusən də torpaqlarını işğaldan azad edən qalib Azərbaycanın beynəlxalq münasibətlər sistemində söz sahibi olduğunu vurğulayan Fəzail İbrahimli bu yeni reallıqların və tələblərin, həmçinin keçən dövr ərzində Azərbaycanda qanunvericiliyin təkmilləşdirilməsində, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunda əldə olunan nailiyyətlərin yeni qanunda təsbit olunmasının zərurətindən danışıb.

Fəzail İbrahimli bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ölkədə həyata keçirilən ardıcıl və sistemli islahatlar nəticəsində dövlət və cəmiyyət həyatında baş verən bu böyük dəyişikliklər prosesinə Milli Məclis qanunvericilik müstəvisində öz töhfəsini verməyə bilməzdi. Beləliklə, parlamentdə təmsil olunan siyasi partiya nümayəndələri "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin hazırlanması ilə bağlı Milli Məclisin sədri Sahibə Qafarovaya müraciət ediblər. Parlamentin sədri siyasi partiyaların təklifini dəstəkləyib və yeni qanun layihəsinin hazırlanması haqqında tapşırıq verib.

Fəzail İbrahimli İctimai birliklər və dini qurumlar, Hüquq siyasəti və dövlət quruculuğu və İnsan hüquqları komitələri tərəfindən qanun layihəsinin hazırlanması prosesi barədə məlumat verib. O, layihə hazırlanarkən dünyanın qabaqcıl ölkələrinin təcrübəsinin öyrənildiyini, ölkənin siyasi sisteminin və milli xüsusiyyətlərinin, bununla yanaşı, Venesiya Komissiyasının siyasi partiyaların fəaliyyətinin tənzimlənməsi haqqında tövsiyələrinin nəzərə alındığını bildirib. O, bu məsələ ilə bağlı Milli Məclisin ölkədə fəaliyyət göstərən siyasi partiyalara müraciət etdiyini və 47 siyasi partiyadan 250-dən çox təklif daxil olduğunu, həmçinin Sosial Tədqiqatlar Mərkəzinin qanun layihəsi ilə bağlı sosial sorğu həyata keçirdiyini diqqətə çatdırıb.

Vitse-spiker bildirib ki, bütün bunlar ümumiləşdiriləndən sonra qanun layihəsi geniş ictimaiyyətin müzakirəsinə təqdim olunub. Sonra qanun layihəsi ilə bağlı siyasi partiya təmsilçilərinin və Qeyri-Hökumət Təşkilatlarının nümayəndələrinin iştirakı ilə geniş dinləmələr və müzakirələr keçirilib. Aparılan müzakirələrdə səslənən fikirlər, irəli sürülən təkliflər nəzərə alınmaqla, qanun layihəsi üzərində iş davam etdirilib və sənəd yenilənmiş variantda müzakirəyə çıxarılıb. O, bildirib ki, sənədin yenilənməsi zamanı layihədə 66 dəyişiklik edilib.

Sonra qanun layihəsi ilə bağlı çıxış edən Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin hazırlanmasının "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələblərindən irəli gəldiyini, dünya təcrübəsində və ölkə qanunvericiliyində baş verən dəyişikliklərlə bağlı olduğunu diqqətə çatdırıb.

Əli Hüseynli qanun layihəsinin Avropa İnsan Hüquqları Konvensiyasına uyğun olmasını, habelə birləşmək azadlığı hüququnu özündə tam ehtiva etdiyini vurğulayıb. O, komitədə sənədin geniş müzakirə edildiyini, komitənin rəyinin müsbət olduğunu bildirib və belə bir əminlik ifadə edib ki, "Siyasi partiyalar haqqında" yeni qanun layihəsi qəbul olunduqdan sonra ölkədə siyasi islahatların həyata keçirilməsinə, siyasi sistemin təkmilləşdirilməsinə öz töhfəsini verəcək.

Sonra iclasda parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc çıxış edib. O, dövlətin idarə olunmasında və hakimiyyətin formalaşmasında əsas institutlardan biri olan partiyalarla bağlı yeni qanun layihəsinin demokratik prinsiplərə əməl edilməklə, şəffaflıq şəraitində hazırlandığını qeyd edib.

O, bildirib ki, Yeni Azərbaycan Partiyasının yubiley mərasimində Prezident İlham Əliyevin nitqi 30 illik ictimai-siyasi tariximizin xronikası, eləcə də siyasi qüvvələrin yaranması və keçdiyi inkişaf yolunun dolğun şəkildə qiymətləndirilməsi idi. Ölkə rəhbəri yeni dövlət quruculuğunu güclü partiyalar sistemi ilə birgə gördüyünü bəyan edib. Zahid Oruc vurğulayıb ki, Prezidentin çıxışını alqışlarla qarşılayan yüzlərlə məsləkdaşları ilə bərabər, 50-yə qədər partiya rəhbərinin siyasi-ideoloji baxışlarındakı fərqlərə baxmayaraq, yeni qalib siyasi sistemi və yeni milli hədəfləri dövlətlə bir görməsi tarixi hadisə idi. Qeyd olunub ki, ona görə də dövlət idarəçiliyində baş verən yeni institusional dəyişikliklər "Siyasi partiyalar haqqında" yeni qanunun qəbulunu zəruri edir.

"Siyasi partiyalar haqqında" yeni qanunun qəbulunun zəruri edən digər məqamlara da toxunan komitə sədri Azərbaycanın sağlam, rəqabətədavamlı, demokratik, sivil siyasi mübarizə ənənəsini yaratmağa qadir olan siyasi qüvvələrə ehtiyac duyduğunu deyib. Zahid Oruc çıxışında layihəyə edilən dəyişikliklər nəticəsində müzakirələr zamanı bəzi məqamlarla bağlı narahatçılıq doğuran məsələlərin aradan qaldırılması, layihəyə yeni müddəaların salınması barədə ətraflı məlumat verib. O, yalnız mənəvi baxımdan deyil, həm də siyasi və hüquqi cəhətdən köhnələn əvvəlki qanunun yenisi ilə əvəz olunmasının siyasi partiyaları yeni keyfiyyət və kəmiyyət mərhələsinə çıxaracağını bildirib.

Qanun layihəsinin müzakirələrində deputatlar Elşən Musayev, Tahir Rzayev, Fəzail Ağamalı, Fazil Mustafa, Azay Quliyev, Azər Badamov, Elman Nəsirov, Razi Nurullayev, Siyavuş Novruzov, Tahir Kərimli, Hikmət Məmmədov çıxış ediblər, sənədlə bağlı fikirlərini bildiriblər, rəy və təkliflərini səsləndiriblər.

Milli Məclisin sədri Sahibə Qafarova işçi qrupuna səslənən fikirləri və təklifləri nəzərdən keçirməyi tapşırıb. Müzakirələrin sonunda qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Qeyd etmək lazımdır ki, həqiqətən də dövrün tələbləri siyasi partiyalar haqda qanuna da yenidən baxılmasını və bəzi dəyişikliklər edilməsini özündə ehtiva edir. Hazırda bu sahədə nizamsızlıq, qarışıqlıq hökm sürür və bu da cəmiyyətdə çaşqınlıq yaradır. Belə ki, ölkədə 100-dən çox siyasi partiyanın mövcudluğu elan olunsa da, onların təxminən yarısı qeydiyyatdan keçib. Partiyaların 90 faizi cəmi bir neçə nəfərdən ibarətdir ki, bu da həmin strukturun siyasi partiya kimi təqdim olunmasına imkan vermir.

Yeni qanunun bu sahədə nizam yaradacağına və ölkənin siyasi həyatında canlanma yaradacağına inanılır. Belə ki, 100-dən artıq partiya əvəzinə 5-10 iri partiya olacaq ki, bu da onların seçkilərdə, siyasi mübarizədə daha effektiv fəaliyyət göstərməsinə imkan verəcək. Kiçik partiyalar birləşib iri bir partiyaya çevrilə biləcək.

Bundan başqa, dövlətin siyasi partiyalara maliyyə yardımları da artacaq ki, bu da onların özlərinin daha güclü maddi-texniki bazasını yaratmalarına imkan verəcək.

Hər bir halda, siyasi partiyalar əhalinin dəstəyini qazanmalı, seçkilərdə iştirak etməli, öz sıralarında ən azı minlərlə üzvü cəmləməli və ölkənin regionlarında təşkilatları olmalıdır. Bu halda həqiqi siyasi mübarizədən söhbət gedə bilər. Yeni qanun da bunu təmin edəcək səviyyədədir. Hələlik, ancaq 1-ci oxunuşdan keçmiş layihə Milli Məclisdə qəbul olunanadək təkliflər və iradların nəzərə alınması, daha da təkmilləşdirilməsi qanunun daha mükəmməl halda qəbuluna imkan yaradacaq.

***Elçin***



# DİQQƏT: Bu şəxsləri 3000 manatadək cərimə gözləyir!

**Azərbaycanda sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında qanunvericiliyin pozulmasına görə cərimələr ikiqat artırılır. SİA-nın məlumatına görə, bununla bağlı məsələ Milli Məclisin dünən keçirilən plenar iclasında müzakirə edilən İnzibati Xətalar Məcəlləsinə dəyişikliklərdə əksini tapıb.**

Dəyişikliyə əsasən, Məcəllənin sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrində qeydiyyata alınmadan yoxlamanın aparılmasına görə vəzifəli şəxslər 2 000 manatdan 3 000 manatadək məbləğdə cərimə ediləcək. Məcəllənin hazırkı bəndinə əsasən isə sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrində qeydiyyata alınmadan yoxlamanın aparılmasına görə vəzifəli şəxslər 1000 manatdan 1500 manatadək məbləğdə cərimə edilir. Müzakirələrdən sonra dəyişikliklər səsverməyə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

# Yeni rayonların yaranmasına ehtiyac var?



**Nəqliyyat eksperti aydınlıq gətirdi**

***"Son dönəmlərdə cənab Prezident İlham Əliyevin son sərəncamları ilə Azərbaycanda iqtisadi rayonlar yaradıldı". Bu sözləri SİA-ya açıqlamasında nəqliyyat eksperti Aslan Əsədov deyib. Onun sözlərinə görə, amma paytaxtın özündə birbaşa idarəetmə prinsipi rayon modul tipli idarəetmə sistemidir. Doğrudur, müxtəlif infrastruktur layihələr və vətəndaş münasibətləri "ASAN Xidmət"lər üzərində qurulub.***

Yəni hökumət və digər qurumlar xüsusən o platforma üzrə cəmləşib və xidmət göstərir. Amma baxaq görək bugünkü gündə şəhər idarəetməsində xüsusən Bakıda bunun üçün əlavə meyara ehtiyac varmı? Əlbəttə, mən deyərdim siyahıyaalma və qeydiyyataalma üzrə statistikaya baxsaq, Bakı şəhərində bugünkü gündə ən azı iki yeni rayon tipli idarəetməyə qurumunun yaranmasına ehtiyac var. Bunun biri Ələt İqtisadi rayonudur.

Ələt bölgəsi və ətraf yaşayış məntəqəsi bugünkü gün azad iqtisadi potensialına qovuşmalıdır. Bunun vacib səbəblərindən biri nəqliyyatın özəl bölməsi olan logistikanın Ələt İqtisadi Zonasında yerləşməsidir. Gələcəkdə Ələt Azad İqtisadi Zonası adlandırılacaq həmin ərazi daha çevik və operativ işlərin görülməsi ilə yanaşı idarəetmənin də səciyyələndirir. Nəzərə almaq lazımdır ki, Ələt qəsəbəsi və ətraf kəndlər tabeliyində olduğu Qaradağ rayonundan kifayət qədər məsafədədir və vətəndaşların müəyyən rayon mərkəzinə, xüsusən də Lökbatan qəsəbəsinə getməsində də çətinliklər yaranır. Burada bu və digər formada idarəetməni təkmilləşdirmək lazımdır. Digər forma isə mən deyərdim Bakının Şimal-Qərb bölgələri üzrə yolun üzərində dayanan Müşfiqabad qəsəbəsi, At yalı, Çiçək qəsəbəsi və digər infrastruktur üzərində qurulmuş qəsəbələrdir. Bunlar baxmayaraq ki, Abşeron rayonunun mərkəzi hissəsi ilə qonşudur, yaxındır, amma orda yaşayanlar müəyyən bir prosedurları həyata keçirmək üçün birbaşa Qaradağ rayonu ərazisinə getməli, Lökbatan qəsəbəsində problemlərini həll etməlidir. Əlbəttə bu məkan, zaman və ailə büdcəsinə öz təsirini göstərir. Bu və digər qəsəbə və xırda yaşayış massivlərinin daha iri bir formada bir rayon tabeçiliyində yaradılması onun inkişafını səciyyələndirəcək bir xüsusiyyətə malik olmalıdır.

*Ziya Hikmət oğlu*




# "Qarabağ" və "Neftçi" "Zenit"in futbolçusu ilə maraqlanır



***Qazaxıstan millisinin üzvü Nurali Alip Azərbaycanda çıxış edə bilər. Qol.az "euro-football.ru"ya istinadən xəbər verir ki, hazırda Rusiyanın "Zenit" klubunda oynayan 23 yaşlı müdafiəçi ilə "Qarabağ" və "Neftçi" maraqlanır. Rusiyanın "Pari Nijni Novqorod" klubunun da Nuralini heyətinə cəlb etmək istədiyi bildirilib.***

Qeyd edək ki, Nurali Alip müqavilə ilə Qazaxıstanın "Kayrat" klubuna məxsusdur və "Zenit"də icarə əsasında çıxış edir. Transfermarkt portalı klubu ilə 2023-cü ilin sonuna qədər müqaviləsi olan futbolçunun transfer dəyərini 1,2 milyon avro müəyyənləşdirib.

# "WhatsApp"da köhnə mesajları tapmaq asanlaşdı



"WhatsApp" mesajların axtarışını asanlaşdıracaq funksiya üzərində işləyir. SİA-nın məlumatına görə, beta istifadəçilərinə açılan yeni xüsusiyyət mesajlarda istədiyimiz tarixə keçməmizi təmin edəcək. Tətbiqdə dəqiq tarixi bilmədiyimiz mesajları axtardığımız zaman belə bir xüsusiyyətin çox faydalı olacağını söyləyə bilərik.

Bundan əlavə, paylaşılan ekran görüntüləri tarixə görə axtarış seçiminin necə istifadə oluna biləcəyini göstərir. Müvafiq olaraq, funksiyadan söhbətlərdə mesajlar axtararkən klaviaturanın yuxarı sağ hissəsində görünən təqvim işarəsi ilə istifadə etmək olar. İstifadəçilər bu işarəyə kliklədikdə istədikləri tarixi seçərək axtardıqları günə çata biləcəklər. "WhatsApp"ın bu yeni funksiyanı nə vaxt kütləvi istifadəyə verəcəyi hələ məlum deyil.

## ELAN

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Fətullayev İlşəd Azad oğluna Cənub Qapısı yaşayış kompleksində, ev verilməsi ilə bağlı tərtib olunmuş sənədin orijinal nüsxəsi itirildiyi üçün etibarsız sayılır.**

* * *

**İsmayılova Bilqeyis Adil qızının adına verilmiş YAP-nın üzvlük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**